Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

BAKI XƏBƏR

www.baki-xeber.com

4 DEKABR 2019-cu il

№ 215 (4113)

Qiyməti 40 qəpik

Həftədə 5 dəfə çıxır

Qəzet 2003-cü ildən nəşr olunur

# ERMƏNİLƏR AZƏRBAYCANDA PARLAMENT SEÇKİLƏRİNİ POZMAĞA HAZIRLAŞIR...

səh. 6

Prezident "Azərbaycan transformasiya mərhələsindədir" fikirlərində nəyi nəzərdə tutdu... səh. 11

Lavrov Mehriban Əliyevanın Moskvada əldə etdiyi razılaşmaların birini də açıqladı səh. 3

Nazirlər Kabinetində struktur islahatları nazirlərin də dəyişdirilməsi ilə nəticələnəcək... səh. 5

Bakıda Elmar Məmmədyarovla Sergey Lavrovun danışıqlarından Qarabağ mesajları - danışıqlar dalana dirənib, predmetli danışıqlara gedirik səh. 2

TANAP qaz kəməri - xaricdən Azərbaycana axan yeni "valyuta kəməri..." səh. 12

Ermənilər faşist Njdenin qisasını ruslardan Qriboyedovu təhqir etməklə aldılar səh. 10

Bakıda akademikin evinin altında rəzalət - yüzdən çox müraciəti bloklayan kimlərdir... səh. 15

Yarıçılpaq qızların erotik fotoları altında məşhur kəlağayının reklamı - necədi... səh. 15



səh. 9

## Azərbaycan və Ermənistan XİN başçılarının Bratislava görüşünə müharibənin qarşısının alınmasında son şans kimi baxılır





**Prezident Əliyev Lavrovun diqqətini Paşinyanın əsas pozuculuq tezisinə yönəltdi...** səh. 3

**Ceyhun Osmanlı «FETO ittihamlarından» sonra kölgədən çıxır...** səh. 7

**İrəvanda Qriboyedovun heykəlinin təhqir olunması erməni ideoloqları tələyə salıb - «Qafqazda yaşadığımız üçün ona borcluyuq...»** səh. 8

səh. 5 Azərbaycan və Ermənistan XİN başçılarının Bratislava görüşündən nəsə gözləməyə dəyərmi...



səh. 6 Ermənilər Njdenin heykəlinin sökülməsini Qars müqaviləsinin 100 illiyi ilə bağlamağa çalışır



səh. 11 Azərbaycanda iqtisadiyyat rəqəmsallaşdırılsa...



səh. 14 DİN uşaqlara qarşı zorakılıq cinayətlərinə görə cinayət təqibi prosesini genişləndirdi...



səh. 14 POS-terminal quraşdırmayan obyekt sahibləri cərimələnəcək...



# Prezident İlham Əliyev XXV beynəlxalq "Bakutel 2019" sərgisinin iştirakçılarına təbrik məktubu göndərdi...

**Prezident İlham Əliyev XXV beynəlxalq "Bakutel 2019" telekommunikasiya, innovasiya və yüksək texnologiyalar sərgisinin iştirakçılarına təbrik məktubu ünvanlayıb. Təbrikdə deyilir:**

"...İyirmi beş ildir təşkil edilən ənənəvi "Bakutel" sərgisi regionun informasiya və kommunikasiya texnologiyaları üzrə mötəbər tədbirlərindəndir. Sərgi təkcə Azərbaycanın deyil, eləcə də dünyanın bir çox ölkələri və aparıcı şirkətlərinin qabaqcıl texnologiyalar sahəsində ən yeni nailiyyətlərinin təqdim olunduğu mühüm platformaya çevrilmişdir.

Təqdirəlayiq haldır ki, Dünya İqtisadi Forumunun qlobal informasiya texnologiyalarına dair son hesabatında Azərbaycan informasiya-kommunikasiya texnologiyalarına verdiyi əhəmiyyətə görə 139 ölkə arasında 8-ci yerdə qərarlaşmışdır.

Ölkəmizdə innovasiya ekosisteminin, yüksək texnologiyaların inkişafı və cəmiyyətin bu texnologiyaların imkanlarından faydalanması üçün əlverişli mühit mövcuddur.

Telekommunikasiya sahəsində yeni texnologiyaların istifadəsi, xidmət şəbəkəsinin müasir standartlara uyğunlaşdırılması və yeni xidmətlərlə bağlı müvafiq işlər aparılır. Regionlarda müasir telekommunikasiya xidmətləri istiqamətində irimiqyaslı layihələr icra olunur. İnnovativ layihələrə dövlət dəstəyi bu sahənin potensialının artırılmasını, startapların genişlənməsini və təşəbbüskarlığın yüksəlməsini təmin edir, bu isə bütövlükdə ölkə iqtisadiyyatının dayanıqlı inkişafına müsbət təsir göstərir.

Sərgidə bir çox yeni iştirakçıların da milli pavilyonlarla təmsil olunması beynəlxalq aləmdə özünəməxsus mövqe və nüfuza malik Azərbaycanla informasiya-kommunikasiya texnologiyaları sahəsində əməkdaşlığa artan marağın təzahürüdür.



Bu tədbir sizə qabaqcıl texnoloji nailiyyətlərin və yeniliklərin təqdimatı, biznes əlaqələrinin qurulması və təcrübə mübadiləsi ilə yanaşı, həmçinin ölkəmizi yaxından tanımağınıza şərait yaradır.

İnanıram ki, sərgi çərçivəsində görüşlər və fikir mübadiləsi yeni təşəbbüslərin meydana çıxması və müvəffəqiyyətlə gerçəkləşməsi baxımından əhəmiyyətli olub, qarşılıqlı əlaqələrin daha da dərinləşməsinə öz töhfəsini verəcəkdir".

## Oğuz Peşə Məktəbinin şagirdlərin təqaüdlərini mənimsəyən direktoru qanundan qaça bilmədi

**Azərbaycan Respublikasının Təhsil Nazirliyi və Baş Prokurorluğun Mətbuat xidmətlərinin məlumatına görə, Oğuz Peşə Məktəbinin direktorunun qanunsuz hərəkətləri barədə əldə edilmiş əməliyyat məlumatları əsasında Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi tərəfindən Təhsil Nazirliyinin əməkdaşlarının iştirakı ilə birgə təxirəsalınmaz əməliyyat-axtarış tədbirləri həyata keçirilib.**

Bu tədbirlərlə Oğuz rayonu, Bayan kəndində yerləşən Oğuz Peşə Məktəbinin direktoru Azər Nəcməddinovun məktəbin digər işçiləri vasitəsilə peşə məktəbində təhsil alan şagirdlərin "Kapital-bank" ASC tərəfindən təqdim edilmiş plastik kartlarından istifadə etməklə, 2017-2019-cu illər ərzində onların aylıq təqaüdlərini ələ keçirməsinə əsaslı şübhələr müəyyən edilib.

Fakta görə Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində Cinayət Məcəlləsinin 308.1-ci (Vəzifə səlahiyyətlərindən sui-istifadə) maddəsi ilə cinayət işi başlanıb.

Cinayət işi üzrə hərtərəfli, tam və obyektiv istintaq aparılmasını təmin etmək məqsədilə A.Nəcməddinovun, baş usta İmdad İsmayılovun, baş mühasib və digər işçilərin xidməti otaqlarında, yardımçı sahələrdə, o cümlədən A.Nəcməddinovun yaşadığı rayonun Kərimli kəndində yerləşən evində məhkəmə qərarı ilə axtarış aparılıb, peşə məktəbinin şagirdlərinə məxsus 39 ədəd plastik kart, şagirdlər tərəfindən təhsil haqqı kimi ödənildiyi bildirilmiş 600 manat pul və iş üzrə digər əhəmiyyətli sənəd və əşyalar aşkar edilərək götürülüb.

İstintaq zamanı toplanmış ilkin sübutlarla Azər Nəcməddinovun qeyd edilən qanunsuz hərəkətləri törətməsinə əsaslı şübhələr müəyyən edildiyindən, o, şübhəli şəxs qismində tutulub.

Hazırda cinayət işi üzrə qeyd olunan qanunsuz hallar hərtərəfli araşdırılmaqla təqsirli şəxslərin və qanuni mənafeləri pozulmuş şagirdlərin dairəsinin tam müəyyənləşdirilməsi, habelə vurulmuş ziyanın ödənilməsinin təmin olunması istiqamətində zəruri istintaq-əməliyyat tədbirləri davam etdirilir.

Azərbaycan Respublikasının Baş Prokurorluğu və Təhsil Nazirliyi bu qəbildən olan qanunazidd hallarla üzləşən ölkə vətəndaşlarına müraciət edərək, Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin 161 saylı "Qaynar xətt" əlaqə mərkəzinə məlumat verməlarini xahiş edir.

***Baki-xeber.com***

# Bakıda Elmar Məmmədyarovla Sergey Lavrovun danışıqlarından Qarabağ mesajları - danışıqlar dalana dirənib, predmetli danışıqlara gedirik

**Azərbaycanın və Rusiyanın Xarici işlər nazirləri Elmar Məmmədyarov və Sergey Lavrovun görüşündə Dağlıq Qarabağ münaqişəsinin nizamlanması, iki ölkə arasında əməkdaşlıq, eləcə də beynəlxalq və regional məsələlər barədə müzakirələr aparılıb.**

Elmar Məmmədyarov görüşdən sonra bildirib ki, Dağlıq Qarabağ münaqişəsinin həlli üzrə danışıqlar dalana dirənib: "Hazırda Dağlıq Qarabağ münaqişəsinin həllinə dair danışıqlarda durğunluq vəziyyəti yaranıb".




Məmmədyarov qeyd edib ki, münaqişə mərhələli şəkildə həll olunmalıdır. "İlk növbədə, əlbəttə ki, ordu kazarmalara qayıtmalıdır, çöldə olmamalıdır. Daha sonra qaçqınların qayıtması, iqtisadi imkanların və yolların təcrid olunmasının aradan qaldırılması barədə düşünmək olar".

"Danışıqlar olduqca məzmunlu keçdi. Azərbaycanla Rusiya arasında gələn il üçün siyasi məsləhətləşmələrə dair protokol imzaladıq", - deyə Məmmədyarov bildirib.

Lavrov deyib ki, biz həmsədr qismində Dağlıq Qarabağ münaqişəsinin həllinə kömək göstərəcəyik. O bildirib ki, ötən gün Azərbaycan Prezidenti İlham Əliyevlə səmərəli görüş keçirilib.

Nazir xatırladıb ki, ötən həftə Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın Rusiyaya səfəri baş tutub:"Səfərin yekununda vacib razılaşmalar əldə olunub".

S.Lavrov bildirib ki, Dağlıq Qarabağ münaqişəsi postsovet məkanında uzanmış münaqişələrdən biridir:"Biz anlayırıq ki, kompromis olmalıdır. Biz həmsədrlər olaraq məsələnin həllinə kömək göstərəcəyik. Ümid edirik ki, nəticələr olacaq".

Lavrov əlavə edib ki, Dağlıq Qarabağ icmaları arasında əlaqələrin tərəfdarıdır.

O bildirib ki, Rusiya bu təşəbbüsün müəlliflərindən biri olub: "Hesab edirəm ki, bu çox vacibdir. İstənilən qərar bu torpaqda yaşayan insanlar tərəfindən qəbul olunmalıdır. Mən icmalar arasında əlaqələrin və onların bərpa olunmasının tərəfdarıyam. Yekunda Qarabağın bütün əhalisi necə yaşamaq lazım olduğuna özü qərar verməlidir".

Elmar Məmmədyarov deyib ki, Azərbaycan və Ermənistan Xarici işlər nazirlərinin dekabrın 4-də Bratislavada Dağlıq Qarabağla bağlı predmet danışıqlara başlayacağı gözlənir. Nazir qeyd edib ki, Ermənistanın XİN rəhbəri təhlükəsizlik barədə məsələni qaldırmaq niyyətindədir: "Bizim və Ermənistanın anlayışında təhlükəsizlik nədir? İlk növbədə silahlı qüvvələr kazarmalara qayıtmalıdır. Bəli, təhlükəsizlik vacibdir. Amma həm də Azərbaycan və onun Qarabağdakı əhalisi üçün. Biz həmsədrlərə vəziyyətin dəyərləndirilməsi və təhlükəsizlik məsələsinin həll olunması üçün mərufzənin hazırlanması ilə bağlı müraciət etmişik. Bunun üçün ciddi predmet danışıqlar lazımdır. Erməni həmkarımla Bratislavada görüşdən gözləntilər ondan ibarətdir ki, biz irəli getməliyik".

Lavrov deyib ki, hərbi-texniki əməkdaşlıq Moskva ilə Bakı arasında strateji tərəfdaşlığın ən vacib sahələrindəndir. Nazir qeyd edib ki, hərbi-texniki əməkdaşlıq beynəlxalq qanunvericiliyə uyğun inkişaf edir.

**Öz növbəsində, E.Məmmədyarov bildirib ki, bu sahədə əməkdaşlıq hər zaman gündəlikdə olub. "Müəyyən fikirlər var. Razılaşma olan kimi KİV-ə məlumat verəcəyik".**

# Prezident Əliyev Lavrovun diqqətini Paşinyanın əsas pozuculuq tezisinə yönəltdi...

**Prezident İlham Əliyev dekabrın 2-də Rusiya Federasiyasının Xarici İşlər naziri Sergey Lavrovu qəbul edib. İlham Əliyev Dağlıq Qarabağ münaqişəsinin nizamlanma prosesinə də toxunub və bu istiqamətdə hər hansı irəliləyişin olmadığını nəzərə çatdırıb:**



## *Yeganə Hacıyeva: "Bununla bir daha sübut olundu ki, Paşinyan danışıqları pozmaq üçün provokasiya ilə məşğul olur"*

"Əlbəttə ki, səfər çərçivəsində biz Ermənistan ilə Azərbaycan arasında münaqişənin nizamlanması problemləri barədə danışacağıq. Təəssüf ki, bu istiqamətdə nəzərəçarpan nəticələr olmayıb. Hesab edirəm ki, bunun əsas səbəbi Ermənistan rəhbərliyinin səmərəsiz siyasəti, xüsusən, "Qarabağın Ermənistan olması" barədə bəyanatıdır. Şadam ki, həm sizin tərəfinizdən, həm də digər ölkələrdən olan həmsədrlər tərəfindən, yumşaq desək, bu qəribə bəyanata düzgün qiymət verilib. Biz Minsk Qrupunun həmsədrləri ilə əməkdaşlığı davam etdirəcəyik. Yaxın vaxtlarda Azərbaycanın və Ermənistanın xarici işlər nazirlərinin görüşü olacaq. Biz ümidvarıq ki, siz danışıqlar prosesində fəal iştirakınızı davam etdirəcəksiniz. Bir daha xoş gəlmisiniz. Bakıda vaxtınızın xoş keçməsini arzu edirəm".

Göründüyü kimi, İlham Əliyev Lavrovla görüşdə əsas diqqəti Paşinyanın sülh danışıqları prosesi ilə ziddiyyət təşkil edən bəyanatına yönəldib. Prezidentin bu məsələyə işarə etməsinin hansı sətiraltı mənaları ola bilər?

Politoloq Yeganə Hacıyeva "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, Bakıda Azərbaycan Prezidenti İlham Əliyevin Rusiya Federasiyasının XİN rəhbəri Sergey Lavrovla görüşü ciddi hadisə sayıla bilər: "Səfər daha öncədən nəzərdə tutulsa da, detalları noyabrın 27-də, Moskvada Azərbaycan və Rusiya xarici işlər nazirlərinin müavinləri Xələf Xələfov və Yuri Rudenkonun məsləhətləşmələri zamanı dəqiqləşdirilib

Səfər öncəsi görüşdə ikitərəfli münasibətlərin prioritet mövzuları, regional və beynəlxalq gündəmdəki aktual məsələlər və həmçinin, ikitərəfli əlaqələrin daha sonrakı inkişafı müzakirə edilib.

Görüşdə ikitərəfli münasibətlərin müzakirəsi haqqında danışsaq, detallara varmadan qeyd edim ki, tərəflərin prioritet istiqamətləri və bu istiqamətlər üzərindən hər iki ölkənin xarici siyasət idarələrinin 2020-ci il üçün məsləhətləşmə planının imzalanması baş tutdu.

Müzakirə olunan regional mövzularda tərəflər Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi ilə bağlı fikir mübadiləsi apardılar".

Politoloqun sözlərinə görə, səfərin əsas yükü məhz Rusiya XİN rəhbəri və Azərbaycan Prezidentinin Dağlıq Qarabağ konfliktinin nizamlanması üzrə müzakirələri üzərinə düşüb: "Ötən ili Rusiya-Azərbaycan münasibətləri üçün uğurlu il kimi dəyərləndirən Prezident İlham Əliyev ölkələrimizin beynəlxalq təşkilatlardakı fəaliyyətinin uzlaşması kimi məqamlara, ölkələrimizin siyasi mövqelərinin qarşılıqlı dəstəklənməsi məqamlarına diqqət çəkdi.

Azərbaycan nümayəndə heyətinin tam heyətdə Rusiyanın AŞPA-ya qayıtmasının lehinə səs verməsini xatırladan cənab Prezident, Azərbaycanı narahat edən məsələlərlə bağlı beynəlxalq strukturlarda Rusiya Federasiyasının dəstəyini hiss etdiyini vurğuladı.

Prezident Dağlıq Qarabağ konfliktinin nizamlanmasına toxunaraq, Ermənistan Baş nazirinin konfliktin nizamlanmasına zidd mesajlarının sülh prosesinə ziyanlı olmasını qeyd etdi. Rusiya XİN rəhbəri Lavrov isə cavabında Azərbaycan Prezidentinin tezisini tam dəstəklədi və Ermənistanın Baş naziri Paşinyanı yanlış və ziyanlı ritorikadan, BMT Nizamnaməsində və Helsinki Yekun Aktında təsbit olunmuş prinsiplərə zidd olan ritorikadan çəkinməyə çağırdı. Bununla bir daha sübut olundu ki, Paşinyan danışıqları pozmaq üçün provokasiya ilə məşğul olur.

Lavrov, həmçinin , Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın Rusiya Federasiyasına səfərini çox vacib nəticələri olan, ikitərəfli münasibətlərə xüsusi töhfə verəcək bir bir səfər olaraq dəyərləndirdi.

Rusiya XİN rəhbəri Lavrovun səfərinin Rusiya tərəfi üçün gözləntiləri haqqında danışsaq, bunu daha çox qlobal mövzulara aid hesab etmək lazımdır və hazırda Rusiya-Azərbaycan münasibətlərində, qlobal yanaşmada iki dövlət arasında əlaqələrdə narahatedici fikir ayrılığı mövcud deyil, ancaq şübhəsiz ki, müzakirə edilməsi məsələlər də yox deyil. Tərəflər ABŞ-ın Rusiya və İranla münasibətləri fonunda, Yaxın Şərq, Mərkəzi Asiya regionunda təhlükəsizlik, sabitlik, rifahın gücləndirilməsində mümkün aktivlər, xüsusilə Yaxın Şərqin siyasi və iqtisadi modernləşməsi istiqamətində Azərbaycanın söz sahibi olduğu İslam Əməkdaşlıq Təşkilatında iştirakı və s. mövzularda müzakirələr aparırlar".

***Məhəmmədəli QƏRİBLİ***

# Lavrov Mehriban Əliyevanın Moskvada əldə etdiyi razılaşmaların birini də açıqladı

**"Mehriban Arif qızı Əliyevanın Rusiya Federasiyasına səfərinin daha bir maraqlı və hesab edirəm ki, çox vacib nəticəsi Rusiya-Azərbaycan Gənclər Forumunun daha müntəzəm keçirilməsi barədə razılaşma oldu". Bu sözləri Rusiya Federasiyasının Xarici İşlər naziri Sergey Lavrov Prezident İlham Əliyevin qəbulunda olarkən deyib.**



## *Fikrət Sadıqov: "Gənclər Forumunun müntəzəm keçirilməsi iki ölkə münasibətlərinin inkişafında strateji baxımdan mühüm əhəmiyyətə malik ola bilər"*

Rusiya Xarici İşlər naziri bununla bağlı bir sıra məqamlara toxunub: "Bu, varislik baxımından, tarixi yaddaşın qorunub saxlanması və həm Rusiyada, həm də Azərbaycanda bizim gənc nəslin münasibətlərimizə həmişə xas olmuş dostluq, mehriban qonşuluq ruhunda tərbiyəsi baxımından prinsipial əhəmiyyət kəsb edir. Həm regional, həm qlobal, həm də universal beynəlxalq təşkilatlarda əməkdaşlığımıza gəldikdə, biz sıx qarşılıqlı fəaliyyəti, həmişə bir-birinin mövqelərini nəzərə almaq istəyini çox yüksək qiymətləndiririk. Biz bundan sonra da ortaq mövqelərimizin dəstəklənməsinə, Azərbaycan və Rusiya üçün xüsusi maraq doğuran mühüm məsələlərin həllinə kömək edəcəyik".

Lavrov görüşdə onu da qeyd edib ki, iki ölkə arasında əmtəə dövriyyəsi sürətlə artır. Rusiya Federasiyasının 70-dən çox subyekti Azərbaycanla əməkdaşlıq edir.

Bütün bunlarla yanaşı, Rusiya-Azərbaycan Gənclər Forumunun müntəzəm keçirilməsi barədə razılaşmanın əldə olunması iki ölkə əlaqələrində keyfiyyət baxımdan yeni imkanlar yaradacaq. Ümumilikdə, sözügedən forumların müntəzəm keçirilməsi Rusiya-Azərbaycan münasibətlərində strateji baxımdan nə kimi rola malikdir?

Məsələyə münasibət bildirən keçmiş diplomat, politoloq Fikrət Sadıqov buna bir neçə kontekstdən yanaşdı: "Məsələ ondadır ki, yeni nəslin nümayəndələri baş verən hadisələr, ikitərəfli münasibətlərin müxtəlif aspektləri haqqında bilməlidirlər. Onlar nəinki bundan xəbərdar olmalı, həmçinin, bu prosesdə yaxından iştirak etməlidirlər. Ona görə də bu istiqamətdə cavan nəslin iştirakı mütləqdir və labüddür. Çünki bu, hər iki ölkənin cavanları üçün lazımdır. Bütün bunlar təbii ki, forumlar çərçivəsində, ikitərəfli və çoxtərəfli görüşlər zamanı həyata keçirilməlidir. Bununla bağlı müxtəlif konfransların keçirilməsinə ehtiyac var. Tək bəyanatlar verməklə iş bitmir. Bununla bağlı birgə tədbirlər təşkil edilməlidir. Həmçinin, birgə aksiyalar keçirilməlidir. Bu cür aksiyalar ənənəvi xarakter daşıyan ikitərəfli münasibətlərin göstəricisi olmalıdır. Sözügedən münasibətlərin bundan sonra da inkişafına təkan verilməlidir. Hesab edirəm ki, sözügedən prosesdə cavanların rolu, iştirakı ölkələr arasında münasibətlərin inkişafına böyük töhfələr verəcək. Ona görə də Rusiya-Azərbaycan Gənclər Forumunun müntəzəm keçirilməsi iki ölkə münasibətlərinin inkişafında strateji baxımdan mühüm əhəmiyyətə malik ola bilər".

*"Gənclər nəinki bundan xəbərdar olmalı, həmçinin, bu prosesdə yaxından iştirak etməlidirlər"*

***Vidadi ORDAHALLI***

# Naxçıvanda Ümumdünya Mətbuat Şuraları Assosiasiyasının xətti ilə beynəlxalq konfrans keçirilib

**Noyabrın 30-da Naxçıvan şəhərində "Onlayn media və sosial şəbəkələr: yeni dövrün çağırışlarında jurnalist peşəkarlığı və cəmiyyətin mənafeləri" mövzusunda beynəlxalq konfrans keçirilib. Bu məqsədlə Ümumdünya Mətbuat Şuraları Assosiasiyasının rəhbəri Melek Sule Akerin başçılıq etdiyi, Assosiasiyanın üzvlərindən Ali Hancerlinin, Nurhan Günsevin, Nik Nvolisanın daxil olduğu nümayəndə heyəti noyabrın 30-dan dekabrın 2-dək Muxtar Respublikada səfərdə olublar.**

Azərbaycan Mətbuat Şurasının sədri Əflatun Amaşov, Şuranın sədr müavini Umud Rəhimoğlunun, İdarə Heyətinin üzvləri - "İki sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadənin və "525-ci qəzet"in baş redaktoru Rəşad Məcidin də qatıldıqları tədbirin iştirakçıları əvvəlcə ulu öndər Heydər Əliyevin Naxçıvan şəhərindəki abidəsini ziyarət ediblər.

Sonra qonaqlar Heydər Əliyev Muzeyində olublar. Burada onlara muzeydəki eksponatlar, Heydər Əliyevin həyat yolunun müxtəlif istiqamətlərinə dair ətraflı məlumat verilib. muzeydə Ulu öndərin həyat və fəaliyyətini əks etdirən dəyərli eksponatlar sərgilənir. Qonaqlar ümummilli lider Heydər Əliyevin Naxçıvandakı fəaliyyəti ilə xüsusi maraqlanıblar. Bildirilib ki, muzeyin kitabxanasında 538 adda 1100-dən çox ədəbiyyat nümayiş etdirilir.

Ulu öndər Heydər Əliyevin 1991-1993-cü illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri işlədiyi vaxtlara aid eksponatlar diqqəti cəlb edib. Ali Məclisin mətbuat xidmətinin həmin dövrə aid məlumatları, "Şərq qapısı" qəzetinin nüsxələri də muzeydə qorunub saxlanılır.

Qonaqlar muzeyin xatirə kitabına ürək sözlərini yazıblar.

Naxçıvan Dövlət Universitetinin Media Mərkəzi ilə yaxından tanış olmuş konfrans iştirakçıları universitet televiziyasına müsahibə veriblər. Jurnalistika ixtisası üzrə təhsil alan tələbələrlə keçirilən görüşdə isə gənclərə müasir dövrdə medianın fəaliyyət tərəflərindən ətraflı söhbət açılıb, dünyada Mətbuat Şurası institutunun missiyasının önəmli cəhətlərinə nəzər salınıb. Burada həmçinin Azərbaycan Mətbuat Şurası İdarə Heyətinin üzvü Rəşad Məcid özünün yeni çapdan çıxan "Qələmsiz yazılanlar" kitabını gənc jurnalistlərə bağışlayıb.

Universitetin İnformasiya Kommunikasiya Texnologiyaları və Elektron Təhsil Şöbəsi ilə tanışlıq zamanı məlumat verilib ki, universitet ərazisində elektron imtahanların keçirilməsi mərkəzi burada yerləşir. Ali təhsil ocağının sosial şəbəkə hesabları, saytı, elektron sənəd dövriyyəsi buradan idarə olunur.

Universitetin media mərkəzi ilə yaxından tanış olan qonaqlara məlumat verilib ki, mərkəzin maddi texniki bazası möhkəmlənib, bütün lazımi avadanlıqlar, ötürücülər istifadəyə verilib. Tələbələrin iştirakı ilə burada verilişlər, xəbər, videoçarx və sənədli filmlər hazırlanaraq təqdim olunur. Qonaqlar universitet televiziyasında veriliş aparıblar.

***

Naxçıvan Şəhər İcra Hakimiyyətinin akt zalında keçirilmiş "Onlayn media və sosial şəbəkələr: yeni dövrün çağırışlarında jurnalist peşəkarlığı və cəmiyyətin mənafeləri" mövzusundakı beynəlxalq konfransı Muxtar Respublika Ali Məclisi Aparatının Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri Ülvi Hüseynli açaraq bildirib ki, Azərbaycanın hər yerində olduğu kimi, Naxçıvanda da kütləvi informasiya vasitələrinin inkişafı üçün hərtərəfli şərait yaradılıb. Ötən illər ərzində mediaya göstərilən dövlət qayğısı nəticəsində muxtar respublikada peşəkar jurnalist ordusu formalaşıb. O bildirib ki, bir əsrə yaxın tarixi olan Naxçıvan mətbuatı bu gün əsl inkişaf dövrünü yaşayır. Muxtar respublika mediası ən müasir avadanlıqlarla təmin olunub. Burada Universitet televiziyası və radiosu da daxil olmaqla 3 televiziya, 3 radio, 9 qəzet, ali təhsil və elm müəssisələrinin qəzet və jurnalları, "Nuhçıxan" İnformasiya Agentliyi fəaliyyət göstərir. Son illərdə media qurumlarının saytları yenilənib, onlar geniş oxucu və izləyici kütləsi qazanıblar. Bu gün Muxtar Respublika barədə ölkə mətbuatı ilə yanaşı, eyni zamanda Türkiyə, Rusiya, Amerika Birləşmiş Ştatları, Çili, Səudiyyə Ərəbistanı, Böyük Britaniya, İspaniya, Pakistan, Yaponiya, Malayziya və digər ölkələrin kütləvi informasiya vasitələrində, sosial şəbəkə hesablarında məqalələr verilir, fotoşəkillər və videolar paylaşılır.

Azərbaycan Mətbuat Şurasının sədri Əflatun Amaşov çıxışında Ümumdünya Mətbuat Şuraları Assosiasiyasının fəaliyyət istiqamətləri ilə bağlı məlumat verib. O bildirib ki, Assosiasiya 1992-ci ildə ABŞ-ın müxtəlif ştatlarının, Türkiyənin, Hindistanın, Pakistanın, Banqladeşin, Nigeriyanın, Nepalın, Tanzaniyanın və digər ölkələrin jurnalistlərinin birgə yaratdıqları təşkilatdır. 2003-cü ildə təsis edilmiş Azərbaycan Mətbuat Şurası 2005-ci ildən həmin qurumun üzvüdür. Ümumdünya Mətbuat Şuraları Assosiasiyasının məqsədi üzv ölkələrdə, habelə dünyada söz və ifadə azadlığı ilə bağlı məsələləri diqqətdə saxlamaqdan, bununla əlaqədar hökumətlərə tövsiyələr ünvanlamaqdan ibarətdir. Qurum həmçinin jurnalist peşəkarlığının forma və xüsusiyyətlərini də təhlil edir, mövcud istiqamətdəki standartların tədbiqinə dəstək olur. Ə.Amaşov çıxışında həmçinin vurğulayıb ki, 2019-cu il üçün Assosiasiyanın toplantısı Bakıda keçirilib. Həmin tədbirdə ümumilikdə 40-dan çox nümayəndə iştirak edib. Toplantı çərçivəsindəki müzakirələrdə Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvanın Mətbuat Şurasının da assosiasiyaya inteqrasiyası ilə əlaqədar ideya yaranıb. "Çox şadam ki, biz bu gün bu ideyanı keçirdiyimiz konfransla gerçəkləşdiririk. Tədbirin təşkilinə göstərdəyiyi dəstəyə, həssas münasibətə görə Naxçıvan Muxtar Respublikasının ali rəhbərliyinə təşəkkürümüzü bildiririk", - deyən Ə.Amaşov konfransın qarşılıqlı əməkdaşlığın inkişafı baxımından əhəmiyyətli olacağına inamını ifadə edib. MŞ sədri Naxçıvan Mətbuat Şurasının Ümumdünya Mətbuat Şuraları Assosiasiyasına üzv olması ilə bağlı qeyd edib ki, yeni memorondumun imzalanması ölkəmizin media mühitində əlamətdar hadisədir. Bu, həm də Naxçıvan mediasının müasir durumunu əks etdirməklə yanaşı onun beynəlxalq müstəviyə çıxarılma səviyyəsini də təsdiqləyir.



Ümumdünya Mətbuat Şuraları Assosiasiyasının rəhbəri Melek Sule Aker bildirib ki, informasiyanın getdikcə daha qlobal mahiyyət daşıdığı dünyamızda söz və ifadə azadlığı kimi dəyərlərin qorunması çətin prosesə çevrilməkdədir. Çətinlik bir tərəfdən internetin verdiyi imkanlardan sui-istifadə ilə bağlıdırsa, digər yandan sahənin özünün dinamik xarakteri nəzərə çarpır. mövzunun aktuallığını diqqətə çatdıraraq qeyd edib ki, sosial şəbəkələr və sosial media ictimai fikri formalaşdırır. Bu gün ən önəmli problemlərdən biri sosial medianın tənzimlənə bilməməsi və müəllif hüquqlarının pozulmasıdır. Bu problemin aradan qaldırılması üçün tənzimləyici hüquqi bazasının formalaşması bütün dünyada öndə duran məsələlərdəndir. Belə durumlarda müəyyən birliklərin bu kimi məsələləri gündəmə gətirməsi, beynəlxalq ictimaiyyətin diqqətini çəkməsi son dərəcə vacibdir. Ümumdünya Mətbuat Şuraları Assosiasiyası da məhz bu məram xidmət edən qurumdur. M.S.Aker rəhbərlik etdiyi assosiasiyanın gələcəkdə Naxçıvan Mətbuat Şurası ilə sıx əməkdaşlıq şəraitində çalışması üçün konfansın mühüm zəmin yaratdığını dilə gətirib.

Ümumdünya Mətbuat Şuraları Assosiasiyasının üzvü, Nigeriyadan olan beynəlxalq media eksperti Nick Nvolisa Nigeriyada və Orta Afrikada sosial medianın tənzimlənməsi və bu sahədə olan problemlər barədə məlumat verib.

Naxçıvan Muxtar Respublikası Dövlət Televiziya və Radio Verilişləri Komitəsinin sədri Sahil Tahirli çıxışına rəhbərlik etdiyi media qurumunun texniki imkanları barədə geniş məlumat verməklə başlayıb. O bildirib ki, Naxçıvan teleradiosu 19 saat televiziya, 19 saat radio verilişləri yayımlayır və gələcəkdə mövcud göstəricinin artırılması planladırılır. Bunun üçün hər cür texniki imkanların olduğunu vurğulayan S.Tahirli çıxışında telekanalın təqdimat xüsusiyyətlərinə nəzər salıb. Rəngarəngliyin media peşəkarlığı ilə çulğalaşmasının Muxtar Respublikada jurnalist fəaliyyətinə verilən dəyərin nümunəsi kimi dəyərləndirib. S.Tahirli əlavə edib ki, bu gün Muxtar Respublikanın informasiya blokadası tam yarılıb. Naxçıvan televiziyası və radiosu dünyaya açılıb və hər bir nöqtədə izlənilir. Mətbuat orqanlarının, "Nuhçıxan" İnformasiya Agentliyinin saytları və sosial şəbəkə hesabları dünyanın 140 ölkəsində oxunur. Onlar ingilis və rus dillərində əhəmiyyətli xəbər və məqalələr hazırlayaraq yayırlar. Bu da müstəqillik illərində əldə olunan ən böyük uğurlardan biridir. Sahil Tahirli onu da deyib ki, Naxçıvan mediası sürətlə gəncləşir, gənc jurnalistlər onlayn media üzərindən Naxçıvan həqiqətlərinin yayılmasında yaxından iştirak edirlər. Təkcə son 5 ildə Naxçıvan Dövlət Universitetinin jurnalistika ixtisası üzrə bitirən 20 nəfər gənc Naxçıvan teleradiosunda işlə təmin edilib.

Naxçıvandakı "Şərq qapısı" qəzetinin baş redaktoru Mehriban Sultanova bildirib ki, media qurumlarının sosial şəbəkələrdəki çoxminlik səhifələrinin yaradılması Muxtar Respublika barədə operativ, dəqiq və qərəssiz informasiyaların yayılmasını təmin edir.

Naxçıvan Muxtar Respublikasının Mətbuat Şurasının sədri Rövşən Hüseynov rəhbərlik etdiyi qurumun fəaliyyət istiqamətlərindən söz açaraq diqqəti təşkil olunan müxtəlif yaradıcılıq müsabiqələrinə, jurnalistika və söz sənəti ilə əlaqədar hazırlanmış nəşrlərə yönəldib. O, jurnalistika sahəsindəki tendensiyaların öyrənilməsi və təbliği baxımdan Ümumdünya Mətbuat Şuraları Assosiasiyası ilə əməkdaşlığın önəmini vurğulayıb.

MŞ İdarə Heyətinin üzvü, "İki sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadənin, MŞ sədrinin müavini Umud Rəhimoğlunun və toplantıdakı ayrı-ayrı şəxslərin çıxışlarında bildirilib ki, Naxçıvanda maddi-texniki bazanın gündən-günə gücləndirilməsi buradakı KİV-lərin fəaliyyətinin müasir dövrün tələbləri səviyyəsində qurulması üçün geniş imkanlar açıb. Nəticədə Naxçıvan media qurumlarının saytları fəaliyyətə başlayıb və qısa zamanda geniş oxucu və izləyici kütləsi qazanıb. Hazırda Muxtar Respublikanın günün tələbləri səviyyəsində yenilənən onlayn media orqanları sosial şəbəkələr üzərindən geniş təbliğat qurur. Belə yanaşma Naxçıvan barədə operativ, dəqiq və qərəzsiz informasiyaların sürətlə yayılmasını təmin edir.

Konfransın sonunda Naxçıvan Mətbuat Şurasının Ümumdünya Mətbuat Şuraları Assosiasiyasına üzv olması ilə bağlı Əməkdaşlıq Memorandumu imzalanıb.

***

Dekabrın 1-də Ümumdünya Mətbuat Şuraları Assosiasiyasının üzvləri Naxçıvanın tarixi ənənələrə malik "Şərq qapısı" qəzetinin və "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyinin, həmçinin Naxçıvan Dövlət Televiziyasının və "Nuhçıxan" İnformasiya Agentliyinin fəaliyyəti ilə tanış olublar.

"Şərq qapısı" qəzetinin redaksiyasında olan qonaqlara məlumat verilib ki, 2010-cu ildə "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyi üçün yeni kompleks istifadəyə verilib. Burada müasir şərait yaradılıb, yeni çap avadanlıqları quraşdırılıb.

Qeyd olunub ki, 2012-ci ildən istifadəyə verilən "Şərq qapısı" qəzetinin internet saytı bu ilin sentyabr ayında yenilənib. Qonaqlar qəzetin əməkdaşları ilə söhbət edib, burada yaradılan iş şəraiti ilə daha yaxından tanış olublar.

"Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyində qonaqlara məlumat verilib ki, 1997-ci ildə yaradılan nəşriyyat 2010-cu ildə yeni binada yerləşdirilib və burada yüksək poliqrafik göstəricilərə malik Almaniya istehsalı olan çap avadanlıqları quraşdırılıb.

Görüşlərdə əsas diqqət sözügedən media qurumlarının kadr potensiali ilə təminatına yönəlib. Məlumat verilib ki, Naxçıvan MR Ali Məclisi sədrinin göstərişinə əsasən Naxçıvan Dövlət Universitetinin məzunlarının konkret sahələr üzrə işə götürülməsi həyata keçirilir. Mövcud prosedur jurnalistika sahəsi üzrə də tətbiq olunur və effektiv nəticələr verir.

Görüşlərdə habelə sözügedən KİV-lərin maddi-texniki imkanları, yayım keyfiyyəti, iş strukturu barədə qonaqlara ətraflı məlumat verirlib, praktikada rast gəlinməkdə olan məqamlar qabardılıb. Ümumdünya Mətbuat Şuraları Assosiasiyasının üzvləri Naxçıvan TV-də proqrama qatılaraq səfərləri ilə bağlı məlumat verib, təəssüratlarını bölüşüblər.

Zəngin səfər proqramı ilə yadda qalan konfrans çərçivəsində qonaqlar həmçinin Muxtar Respublikanın tarixi-mədəni abidələri, görməli yerləri ilə də tanış olublar.

# Nazirlər Kabinetində struktur islahatları nazirlərin də dəyişdirilməsi ilə nəticələnəcək...

**İlqar Hüseynli:** *"Bu, olmayacaqsa, islahatların uğurundan danışa bilmərik"*

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 2-də Dilarə Seyidzadəni qəbul edən zaman aparılan islahatların Nazirlər Kabinetini də əhatə edəcəyini bildirib: "Hörmətli Dilarə xanım, bildiyiniz kimi, keçən həftənin sonunda Prezident Administrasiyasının yeni strukturu təsdiq edildi.**

*"Nazirlər Kabinetini əhatə edəcək islahatların fonunda, bəzi nazirlər portfeli ilə vidalaşmalı olacaq"*

Bu struktura görə, uzun illər rəhbərlik etdiyiniz katiblik, bir neçə şöbə ləğv olundu və bir neçə yeni şöbə yaradıldı. Bu, təbii prosesdir. Çünki ölkəmizin hər yerində islahatlar aparılır, o cümlədən, struktur islahatları. Yaxın günlərdə Nazirlər Kabinetinin yeni strukturu təsdiq olunacaq. Yaxın gələcəkdə parlament yenidən formalaşacaq. Bu, təbii prosesdir. Eyni zamanda, gəncləşmə prosesi aparılır, bu da təbiidir. Çünki biz indi gənc kadrlara gərək imkan yaradaq ki, onlar öz bacarığını göstərsinlər".

Prezidentin Nazirlər Kabineti ilə də bağlı islahatların aparılacağına dair verdiyi anonsdan bu nəticəni çıxarmaq olarmı ki, bu proses bəzi nazirlərin dəyişdirilməsi ilə nəticələnəcək?

Ekspert İlqar Hüseynli "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, Nazirlər Kabinetində gözlənilən islahatların dalğası ciddi yeniliklər vəd edir: "Birbaşa Nazirlər Kabinetinə tabe olan bəzi komitələrin yenidən qurulması və ya birləşdirilməsi prosesi baş verə bilər. Eyni zamanda, Nazirlər Kabinetinin bəzi funksiyalarının artırılması məsələsi gündəmə gələ bilər. Bütün bunlar da bizə struktur islahatlarının elementlərinin olduğunu söyləməyə əsas verir. Bir ekspert kimi mənim qənaətim ondan ibarətdir ki, bir neçə komitənin başqa strukturlara birləşdirilməsinə zərurət var. Elələri var ki, onların, ümumiyyətlə, ləğvi təşəbbüsü irəli sürülməlidir. Bu sırada Diasporla İş Komitəsi və ya ailə, qadın, uşaq problemləri ilə məşğul olan komitənin adını çəkə bilərəm. Çünki bu qurumların ayrıca bir dövlət qurumu şəklində fəaliyyətinə ehtiyac yoxdur. Bəzi ölkələrin təcrübəsindən görürük ki, dias-



por işi ilə səfirliklər məşğul olur. Hesab edirəm ki, bu islahatlar həm də büdcə vəsaitlərinin qənaətinə gətirib çıxara bilər. Həm də daha çevik və daha operativ fəaliyyət göstərən mexanizm qurula bilər. Bu islahatlarda əsas hədəf ondan ibarət olmalıdır ki, həm gəncləşmə siyasəti olsun, həm də çeviklik təmin olunsun. Eyni zamanda, yeni yaradılan qurumlara geniş səlahiyyətlər verilməlidir.

**Bu olmayacaqsa, islahatların uğurundan danışa bilmərik. Hesab edirəm ki, Nazirlər Kabinetini əhatə edəcək islahatların fonunda, bəzi nazirlər portfeli ilə vidalaşmalı olacaq. Proses bu şəkildə davam edirsə, bir çox qurumda rəhbərlərin əvəzlənməsinə şübhə qalmır. İslahatların dərinləşməsi bunu mütləq mənada tələb edir".**

***Məhəmmədəli QƏRİBLİ***

# Azərbaycan və Ermənistan XİN başçılarının Bratislava görüşündən nəsə gözləməyə dəyərmi...

**Əli Orucov:** *"Bratislava görüşündən ciddi bir nəticə gözləmirəm"*

**Məlum olduğu kimi, Azərbaycanın Xarici İşlər naziri Elmar Məmmədyarov və Ermənistanın Xarici İşlər naziri Zöhrab Mnatsakanyan dekabrın 4-də Slovakiyanın paytaxtı Bratislava şəhərində görüşəcəklər. Görüş ATƏT-in Minsk Qrupu həmsədrlərinin vasitəçiliyi ilə ATƏT-in Nazirlər görüşü çərçivəsində baş tutacaq.**



Məlumat üçün qeyd edək ki, E.Məmmədyarovla Z.Mnatsakanyan arasında sonuncu görüş sentyabrın 24-də ABŞ-ın Nyu-York şəhərində keçirilib. Bundan başqa, bu il oktyabrın 11-də MDB-nin Aşqabad sammiti zamanı Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın Baş naziri Nikol Paşinyan Qarabağ münaqişəsi ilə bağlı hazırkı vəziyyəti və gərginliyin azaldılması imkanlarını müzakirə ediblər. Bundan sonra ATƏT-in Minsk Qrupunun həmsədrləri oktyabrın 15-dən 17-dək Ermənistan və Azərbaycanda səfərdə olublar. Onlar hər iki ölkənin rəhbəri və Dağlıq Qarabağın erməni və azərbaycanlı icmasının təmsilçiləri ilə görüşüblər.

Minsk Qrupunun həmsədr dövlətləri dəfələrlə hazırkı status-kvonun qəbuledilməz olduğunu bildirsələr də, danışıqlarda hər hansı irəliləyiş qeydə alınmayıb. ATƏT-in Minsk Qrupunun həmsədrlərinin bu il martın 9-da yaydığı bəyanatda deyilir ki, münaqişənin ədalətli və davamlı həlli Helsinki Yekun Aktının əsas prinsipləri - xüsusən də gücdən istifadə etməklə təhdid etməmək, ərazi bütövlüyü, bərabərhüquqluluq, xalqların öz müqəddəratını təyin etməsi üzərində qurulmalıdır. Ancaq bütün bunlara baxmayaraq, danışıqlarda heç bir irəliləyiş yoxdur. Bütün bunları nəzərə alsaq, XİN başçılarının Bratislava görüşündən nə gözlənir?

Sözügedən məsələ ilə bağlı fikirlərini "Bakı-Xəbər"lə bölüşən AMİP funksioneri Əli Orucovun sözlərinə görə, bu görüşdən hansısa ciddi nəticə gözlənilmir: "Bü günədək Azərbaycan və Ermənistan arasında Dağlıq Qarabağ münaqişəsinin dinc yolla həlli ilə bağlı müxtəlif səviyyələrdə və formatlarda onlarla görüş keçirilib. Hər dəfə istəyirlər. Rusiya Xarici İşlər naziri Lavrovun "Dağlıq Qarabağ "xalqının" iradəsindən kənar hər hansı həll variantı mümkün deyi" deməsi

*"Nikol Paşinyan hakimiyyətə gələndən aqressiya daha da artıb, ritorika tamamilə dəyişib"*

Ermənistanın destruktiv mövqeyi səbəbindən konfliktin həlli istiqamətində hansısa irəliləyişə nail olunmayıb, sülh prosesi dalana dirənib. Nikol Paşinyan hakimiyyətə gələndən aqressiya daha da artıb, ritorika tamamilə dəyişib. İrəvan və Moskva Azərbaycana təzyiq göstərərək separatçı rejimi də müstəqil tərəf kimi sülh prosesinə qatmaq təhlükəli planlardan xəbər verir və bu, ciddi siqnal kimi qəbul edilməlidir. Yeri gəlmişkən indi də Rusiya təzə bir əcaib termin çıxarıb - Dağlıq Qarabağ tənzimlənməsi. Bu terminin gündəmə gətirilməsinə Azərbaycan siyasiləri də ilkin etirazlarını bildiriblər. Bu, Moskvanın hiyləgər bir gedişidir ki, buna qətiyyən imkan vermək olmaz".

Ə.Orucovun fikrincə, hazırkı situasiyada müsbət irəliləyiş gözlənilmir: "Bratislava görüşündən ciddi bir nəticə gözləmirəm. Çünki Ermənistan Dağlıq Qarabağı öz ərazisi hesab etməkdən çəkinməyib və işğalçı siyasətindən imtina etməyib.

İşğal olunmuş ərazilərimizdə məskunlaşma siyasətini davam etdirir, infrastruktur yaradır. Görüş nəticəsiz olacaq. Tərəflər ümumi bəyanatlar verməklə işlərini bitmiş hesab edəcəklər. Dəfələrlə deyilib ki, Azərbaycan hərbi-siyasi vasitəyə əl atmalı, təcavüzkarı nəticəli danışıqlara oturmağa məcbur etmək üçün gücdən istifadə etməlidir".

***Vidadi ORDAHALLI***

# Ermənilər Azərbaycanda parlament seçkilərini pozmağa hazırlaşır...

**Qoşunların təmas xəttində erməni əsgərin yaralanması Ermənistan XİN-i çox sərt bəyanat verməyə vadar edib. Azərbaycanla hədə tonunda danışılan həmin bəyanatda bildirilir ki, guya Azərbaycanın atəşkəsi pozması onları əlavə addımlar atmağa vadar edə bilər.**

## *"Bunun üçün müharibəyə başlamalıdırlar"*

Bu xüsusda bildirilir ki, xüsusilə də Azərbaycan daxilində gedən siyasi proseslər fonunda, təmas xəttində ehtiyatlı olmalıdır. Ermənilər hətta bir neçə misal da çəkərək, necə təxribat törədə biləcəklərinə işarə edirlər.

Məlumdur ki, qarşıda Azərbaycanı parlament seçkiləri kimi həlledici bir mərhələ gözləyir. Ermənilərin məhz bu məqamda belə bəyanat verməsi parlament seçkiləri zamanı hansısa təxribatlar törədə biləcəklərinə işarə sayıla bilərmi?

Politoloq Qabil Hüseynli "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, ermənilərin nəyə qadir olduqlarını biz yaxşı bilirik: "Azərbaycanda baş verən bütün həlledici mərhələlərdə onlar təxribata əl atırlar. Azərbaycanda təhlükəsizlik çox etibarlı olduğu üçün, onlar daxildə hansısa təxribatı törədə bilmirlər. Əllərində qalır iki vasitə. Bir informasiya terroru ilə bizi təhdid etmə, bir də təmas xəttindəki təxribatları ilə. Biz ölkəmizin evsahibliyi etdiyi mühüm tədbirlər və digər əlamətdar hadisələr zamanı ermənilərin cəbhədə daim necə təxribatlara əl atdıqlarını görmüşük. Atəşkəsi pozmaqla onlar diqqəti ora yönəltməyə çalışıblar. Erməni tərəfi bu tip təxribatlardan tərəflər arasında gedən sülh danışıqları zamanı da istifadə edir. Yəni cəbhədə atəşkəsi pozmaq ermənilərin əlində olan bir vasitədir. Ancaq bir faktı da deyim ki, onlar hər zaman layiqli cavablarını alıblar. Bunu yaxşı bildikləri üçün, indi də şantaja keçirlər. Azərbaycan belə mərhələləri çox keçib.

## ***Qabil Hüseynli:*** *"Əllərində parlament seçkilərini pozmaq üçün elə bir vasitə yoxdur"*




Qarşıdan gələn parlament seçkiləri zamanı da onlar nəsə edə bilməzlər.

Yalnız könül bulandıra bilərlər. Əllərində parlament seçkilərini pozmaq üçün elə bir vasitə yoxdur. Bunun üçün müharibəyə başlamalıdırlar. Bundan ən çox qorxan elə Ermənistanın özüdür. Çünki bütün vasitələrlə çalışır ki, mövcud status-kvonu saxlasın. Bilirlər ki, sülh danışıqları fayda verməyəcəyi təqdirdə Azərbaycan hərbi güclə torpaqları azad etmək haqqına sahibdir. İstənilən halda, biz bu məsələdə həssaslığı əldən verməməliyik".

*Məhəmmədəli QƏRİBLİ*

# Ermənilər Njdenin heykəlinin sökülməsini Qars müqaviləsinin 100 illiyi ilə bağlamağa çalışır

**Armavirdə erməni nasistə xatirə lövhəsinin qoyulması, faşist havadarının qəhrəmanlaşdırılması Azərbaycan və Rusiya ictimaiyyətində haqlı narazılığa səbəb olub. Nasist havadarının xatirəsinin əbədiləşdirilməsi Böyük Vətən Müharibəsi zamanı alman faşistlərinə qarşı döyüşlərdə qanını tökmüş insanların xatirəsinin təhqir olunması kimi qəbul edilir.**



Prezident İlham Əliyev Aşqabadda MDB Dövlət Başçıları Şurasının iclasında faşistlərin qəhrəman kimi qələmə verilməsini qətiyyətlə pislədi. Ölkə başçısı MDB məkanında faşizmin qəhrəmanlıq kimi qələmə verilməsinə yer olmadığını vurğuladı. Azərbaycan dövlət başçısının bu məsələdə qətiyyətli mövqe ortaya qoyması son nəticədə Rusiyanın Krasnodar diyarının Armavir şəhərində Qaregin Njdenin xatirə lövhəsinin sökülməsi ilə nəticələndi.

Qeyd edək ki, Njdenin xatirə lövhəsi sökülməzdən əvvəl Armavir Şəhər Dumasının deputatı Aleksey Vinoqradov tərəfindən qara boya ilə boyandı.

Bu arada erməni mediası iddia edir ki, guya Njdenin xatirə lövhəsinin sökülməsi Qars müqaviləsinin 100 illiyi ilə bağlıdır. Guya burada məqsəd təkcə heykəlin sökülməsi yox,

## ***Mübariz Əhmədoğlu:*** *"Bu tamamilə anormal və həqiqətdən uzaq yanaşmadır"*

1921-ci ildə Moskvada imzalanan Rusiya-Türkiyə müqaviləsinin ləğvinin aktuallaşmasına qarşı çıxmaqdır: "Bu cür hadisələrin 2021-ci il ərəfəsində baş verməsi təsadüfi deyil. Bu, Rusiya-Türkiyənin Ermənistana təzyiq aktıdır".

Qeyd edək ki, Qars müqaviləsi 1921-ci il mart ayının 16-da Rusiya Sovet Federativ Sosialist Respublikası ilə Türkiyə Böyük Millət Məclisi (1923-cü ildə qurulacaq Türkiyə Cümhuriyyətinin sələfi) arasında bağlanmış Moskva sülh müqaviləsinin tələblərinin yerinə yetirilməsi çərçivəsində həmin il oktyabr ayının 13-də Azərbaycan, Ermənistan və Gürcüstan SSR-nin daxil olduğu Zaqafqaziya Sovet Federativ Sosialist Respublikası ilə Türkiyə arasında imzalanıb. Müqavilə 1922-ci il sentyabr ayının 11-də qüvvəyə minib və bitmə müddəti müəyyənləşdirilməyib. Ermənilər isə müqaviləni ləğv etməyə çalışırlar.

Bütün hallarda, Njdenin xatirə lövhəsinin sökülməsinin guya Qars müqaviləsinin 100 illiyi ilə əlaqədar olması barədə ermənilərin iddiaları nə dərəcədə əsaslıdır?

Məsələyə münasibət bildirən Siyasi İnnovasiya və Texnologiyalar Mərkəzinin rəhbəri

## *"Bunun Qars müqaviləsi ilə hər hansı bağlılığı yoxdur"*

Mübariz Əhmədoğlunun sözlərinə görə, Njdenin lövhəsinin sökülməsini Qars müqaviləsi ilə əlaqələndirmək tamamilə absurd yanaşmadır: "Bu tamamilə anormal və həqiqətdən uzaq yanaşmadır. İndi də ermənilər Qars müqaviləsi məsələsini ortaya atıblar. Bunlar gör nə qədər xəstə təfəkkürə malikdirlər ki, nəyi nə ilə müqayisə edirlər. Onların yanaşmasına görə, guya bütün dünya günahkardır, bir ermənilər günahkar deyil. Onlar heç vaxt özlərində günah görməzlər.

**O dərəcədə anormal düşüncəyə malikdirlər. Njdenin lövhəsinin sökülməsi Prezident İlham Əliyevin Aşqabadda ortaya qoyduğu qətiyyətli mövqe ilə daha çox bağlıdır. Ölkə başçısı vaxtında və yerində çox tutarlı mövqe ortaya qoydu. Nəticədə bütün Rusiya ictimaiyyəti hərəkətə gəldi. Ona görə də bunun Qars müqaviləsi ilə hər hansı bağlılığı yoxdur. Njde məsələsi ermənilərin faşist mahiyyətini ortaya qoydu".**

*Vidadi ORDAHALLI*

# Ceyhun Osmanlı "FETO ittihamlarından" sonra kölgədən çıxır...

***Mais Güləliyev:** ”Dəqiq elmlərlə humanitar elmlərin nə qədər fərqi varsa, yaşıllar ideologiyası ilə digər ideologiyaların da o qədər fərqi var”*



*”Hakimiyyətə gəlmək, deputat olmaq üçün bu adla manipulyasiya etmək asan olmayacaq”*

**Bir vaxtlar parlamentdə təmsil olunan Ceyhun Osmanlı adlı sabiq millət vəkili yenidən üzə çıxmağa başlayıb. Qeyd edək ki, aktiv siyasətə "İrəli" adlı gənclər təşkilatının rəhbəri kimi qədəm qoyan C.Osmanlı sonra parlamentə yol tapa bildi.**

Ardınca onun adı dostu Elnur Aslanovla birlikdə Fətullah Gülənin rəhbəri olduğu FETO təşkilatı ilə əlaqədə hallanmağa başladı. Nəticədə E.Aslanov Prezident Administrasiyasındakı vəzifəsini itirdi, C.Osmanlı isə parlamentə növbəti dəfə seçilə bilmədi.

C.Osmanlı keçmiş deputat olmaqla yanaşı, son aylaradək "Odlar Yurdu" Universitetində prorektor vəzifəsində çalışırdı. Mətbuatın yazdığına görə, "Odlar Yurdu"nun rektoru Əhməd Vəliyev onu "nurçu" şəbəkə ilə bağlantısı olması səbəbindən universitetdən xaric etməyə məcbur oldu. Çünki FETO-ya bağlı olduğu iddia edilən Osmanlı rəhbərlikdə təmsil olunduğu üçün, universitetin diplomlarının qardaş Türkiyədə tanınması ilə bağlı problemlər yaranmışdı. Son günlər bu şəxslərin xüsusi fəallaşdığını görürük. Əvvəl E.Aslanov mediada görünməyə başladı, sonra isə onun yaxın dostu C.Osmanlı siyasi hərəkat yaratdığını bəyan etdi. Sabiq millət vəkili C.Osmanlı bildirib ki, Azərbaycan Yaşıllar Hərəkatı (Azerbaijan Green Movement) təsis olunur: "Hazırlıq işlərinin aparılması ilə bağlı artıq təşkilat komitəsi yaradılıb. Yaşıllar deyəndə, bəzən ağla ilk olaraq ekologiya və təbiətin mühafizəsi gəlir. Lakin bunlarla yanaşı, yaşıl iqtisadiyyat, insan hüquq və azadlıqları, gənclərə dəstək, məşğulluq məsələləri, gender bərabərliyinin qorunması, iştirakçı demokratiya kimi məsələlər də Yaşılların fəaliyyət sahələrinə aiddir".

O bildirib ki, ölkədə gedən yeni islahatlar konsepsiyasının uğurla icrasına və yeni dünya nizamında Azərbaycanın mövqelərinin möhkəmlənməsinə yönələn kursa töhfə vermək hərəkatın əsas məramlarındandır: "Avropa Yaşıllar Hərəkatı və Qlobal Yaşıllar Hərəkatı ilə əməkdaşlıq da qarşıda duran planlar sırasındadır".

Əslində, C.Osmanlının bir vətəndaş kimi siyasətlə məşğul olmağa haqqı var. Bizi təəccübləndirən onun niyə ziqzaqlı siyasi gedişlər etməsi və uzunmüddətli qəflət yuxusundan sonra, məhz bu məqamda fəallaşmasıdır. Eyni zamanda, gənclərlə iş sahəsində geniş təcrübəyə və əlaqələrə malik olan bu şəxsin yenidən aktiv siyasətə qayıdışı həmin sektorda heç də xoşagəlməyən nəticələrə səbəb ola bilər. Hər halda, gənclərlə iş üzrə məsul olan əlaqədar qurumlar bu məsələni ciddi diqqətdə saxlamalıdırlar. Bir vaxtlar adları Fətullah Gülənlə sıx işbirliyində hallanan bu şəxsin siyasi aktivləşməsinin kökündə başqa hansı maraqlar dura bilər?

C.Osmanlının müraciət etdiyi qurumun adı və ideologiyası bizi vadar etdi ki, Azərbaycanda Yaşıl hərəkata rəhbərlik etmiş Mais Güləliyevlə əlaqə saxlayaq. Qeyd edək ki, hazırda aktiv siyasətlə məşğul olmayan Mais müəllim Yaşıllar Partiyasının təsisçisi və həmsədri olub. O, "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, yaşıl ideologiya digərlərindən bir qədər fərqlənir: "Mən diqqəti konkret adın üzərinə fokuslamaq istəmirəm. Amma nəzərinizə çatdırmaq istəyirəm ki, bu ideologiya dəqiq elmlərdə olan konkretliyi tələb edir. Yəni sən bu ideologiyanı yürütmək istəyirsənsə, elə ilk andan mövqeyini ortaya qoymalısan. Məsələn, birmənalı şəkildə BP-nin əleyhinə bəyanat verməlisən, dənizdə neftin çıxarılmasına qarşı çıxmalısan. Bunu etmirlər və ya etməyəcəklərsə, həmin adamların səmimiyyətinə inanmağa dəyməz. Biz mübarizəmizi müəyyən mərhələlər üzrə aparırıq. Biz professor Təranə Məmmədova ilə birlikdə bu partiyanın həmsədri olmuşuq. Bizim əsas məramımız ölkədə yaşıllar ideologiyasının yayılması və inkişafı olub. Biz heç vaxt hakimiyyətə iddialı partiya olmamışıq. Vəzifəmiz Avropada olan ekoloji dəyərlərin və yanaşmanın, sosial ədalət prinsiplərinin Azərbaycan cəmiyyətində geniş yayılmasına şərait yaratmaqdır. 2013-cü il prezident seçkilərində biz Ədalət Partiyasının sədri İlyas İsmayılovun namizədliyini dəstəklədik. Həmin hadisələrdən sonra fəaliyyətin yeni mərhələsinə keçdik. Bu da yaradıcılıqdır. Biz hazırda ciddi elmi tədqiqatlar aparırıq. Mən iqlim dəyişiklərinin iqtisadiyyata təsirini öyrənirəm, Təranə xanım isə alternativ enerji tədqiqatları ilə məşğuldur. Bir neçə üzvümüz külək, günəş enerjisi sahəsində çox ciddi tədqiqatlar aparıb. Bizim beynəlxalq jurnallarda ciddi elmi məqalələrimiz çıxır. 6 ildir siyasətdə aktiv görünməməyimiz o demək deyil ki, bu partiya yoxdur. Avropa Yaşıllarını əhatə edən bütün nüfuzlu qurumların üzvüyük. Mütəmadi olaraq görüşlərimiz olur".

M.Güləliyevin sözlərinə görə, belə olan şəraitdə hansısa bir qrupun yaşıllar ideologiyasına sığınaraq qurum yaratması ilk olarq onlara maraqlı gəldi: "Çünki biz həmin adamları tanımırıq. Əgər işlərində səmimidirlərsə, biz buna sevinərik. Hələlik biz prosesi müşahidə edirik, eyniadlı partiya yaratmaq istəyəcəklərsə, biz onda narahatlığımızı açıq bildirəcəyik.

**Partiyamız 2006-cı ildə təsis olunub. Həmin sənədləri biz Ədliyyə Nazirliyinə təqdim etmişik. Bir daha qeyd edirəm ki, dəqiq elmlərlə humanitar elmlərin nə qədər fərqi varsa, yaşıllar ideologiyası ilə digər ideologiyaların da o qədər fərqi var. Hakimiyyətə gəlmək, deputat olmaq üçün bu adla manipulyasiya etmək asan olmayacaq".**

***Məhəmmədəli QƏRİBLİ***

# İrəvanda Qriboyedovun heykəlinin təhqir olunması erməni ideoloqları tələyə salıb - "Qafqazda yaşadığımız üçün ona borcluyuq..."

**Ermənistanda faşizmə olan sevginin Azərbaycan tərəfindən ifşa edilməsi və artıq buna dünya miqyasında müəyyən reaksiyaların yaranması İrəvanda geniş rezonans doğurub. Xüsusən də Rusiya və İsraildə olan təpkilər Ermənistan üçün şok effekti yaradır.**

Rusiyanın Krasnodarsk diyarının Armavir şəhərində erməni faşist cəlladı Qaregin Njdenin xatirə lövhəsinin sökülməsini isə ermənilər Azərbaycanın Ermənistan üzərində növbəti qələbəsi sayır.

Baş verənlərlə bağlı "armenianreport" portalı yazır ki, Njdenin xatirə lövhəsinin sökülməsinin əsl müəllifi Azərbaycandır: "Azərbaycan istəyinə nail oldu və Njdenin xatirə lövhəsinin sökülməsi Rusiya-Ermənistan münasibətlərində növbəti çatdır. Düzdür, yaranmış vəziyyətdə Armavirin erməni icmasının rəhbərliyi iddia edir ki, xatirə lövhəsi tezliklə yerinə qaytarılacaq. Amma bunun baş tutması qətiyyən inandırıcı görünmür. Reallıqda isə biz onu da bilirik ki, Azərbaycan tərəfi bu xatirə lövhəsinin demontaj edilməsinə heç də az əmək sərf etməyib. Azərbaycan bu məsələdə Rusiya ictimai fikrinin yönləndirilməsində həqiqətən də çox effektiv iş gördü".

Bu fonda bir daha xatırlatmaq yerinə düşərdi ki, Ermənistanda faşist Njdenin qəhrəman obrazının yaradılması ilə bağlı məsələni Azərbaycan Prezidenti İlham Əliyev Aşqabadda MDB Dövlət Başçıları Şurasının iclasında qaldırıb. Dövlət başçısı buradakı çıxışında faşistlərin qəhrəman kimi qələmə verilməsini qətiyyətlə pisləyib. Azərbaycan Prezidenti MDB məkanında faşizmin qəhrəmanlıq kimi qələmə verilməsinə yer olmadığını vurğulayıb. İlham Əliyev 2019-cu ildə Rusiya Xarici İşlər Nazirliyinin təqdim etdiyi "Nasizmin qəhrəmanlıq kimi qələmə verilməsi, neonasizmin yayılması və irqçiliyin, irqi ayrıseçkiliyin, ksenofobiyanın və onlarla bağlı dözümsüzlüyün müasir formalarının yayılmasına şərait yaradan praktikanın digər növləri ilə bağlı vəziyyət haqqında" məruzədən sitat gətirərək deyib ki, Ermənistanın keçmiş hakim respublikaçılar partiyası millətçi təmayüllü, Üçüncü Reyxlə əməkdaşlıq etməsi haqqında məlumat olan, birmənalı siyasi mövqeyi olmayan Qaregin Njdenin xatirəsinin əbədiləşdirilməsi üçün addımlar atıb. Ermənistan paytaxtının mərkəzində faşist cəlladı və satqın Qaregin Njdeyə heykəl qoyulmasını kəskin şəkildə pisləyən və bunu faşizmin təbliği kimi dəyərləndirən Azərbaycan Prezidentinin bu çıxışı geniş əks-səda doğurdu. Məhz bundan sonra Armavir Şəhər Dumasının deputatı Aleksey Vinoqradov nasist havadarı Njdenin xatirə lövhəsinin üstünü qara rənglə boyadı. Rusiya mediası da bu məsələyə xüsusi diqqət yteirdi. Bir daha xatırlandı ki, Njde Böyük Vətən müharibəsi illərində nasional sosialistlərin erməni legionunun yaradıcısı olub. O, Şimali Qafqazda sovet ordusuna qarşı vuruşub. Bütün bunlar Rusiya ictimaiyyətində də haqlı narazılığa yol açdı. Nasist havadarının xatirəsinin əbədiləşdirilməsi Böyük Vətən müharibəsi zamanı alman faşistlərinə qarşı döyüşdə qanını tökmüş insanların xatirəsinin təhqir olunması kimi qəbul edildi. Üçüncü Reyxlə əməkdaşlıq etmiş şəxslərin cinayətkar və vətən xaini hesab edilməsini nəzərə alsaq, faşizmlə əməkdaşlıqda adı hallanan bir satqının xatirəsinin Armavirdə əbədiləşdirilməsi heç bir məntiqə sığmırdı və haqlı narazılığa səbəb olurdu. Bütün bunlardan sonra xatirə lövhəsinin sökülməsi ilə bu məsələ öz məntiqi sonunu tapdı və ədalət bərpa edildi.

Məsələ ilə bağlı "armenianreport" portalı onu da yazır ki, məhz Azərbaycanın davamlı fəaliyyəti Njdenin xatirə lövhəsinin son aqibətini müəyyən etdi:"İş ona gətirib çıxardı ki, hətta Rusiya rəsmiləri belə məsələyə münasibət bildirdi. Bakı bununla istəyinə nail oldu. Həm də Azərbaycan Rusiya-Ermənistan münasibətlərində yeni bir çat da yarada bildi. Ermənistan hakimiyyətinin bu durumda fəaliyyəti isə Azərbaycanın gördüyü işlərə adekvat sayıla bilməz. Bizim dövlət qurumları sanki ağızlarına su alıb durublar. Rusiya da bu fonda Ermənistanın hissləri ilə istədiyi kimi oynayır və bunda Azərbaycanın fəaliyyəti az rol oynamır". Bütün bunlar bir daha təsdiq edir ki, Njdenin xatirə lövhəsinin sökülməsi Ermənistan üçün şok effekti yaradıb və onlar bu prosesdə Azərbaycanı ittiham etməyə çalışırlar. Belə bir vaxtda digər maraqlı hadisə isə İrəvanda rus diplomatı, şair və dramaturqu Aleksandr Qriboyedovun abidəsinin təhqir olunmasıdır. "Vereleg" adlı saytı yazır ki, abidəni təhqir edən və onun üzərinə qırmızı boya tökən Ermənistanın Birləşmiş Milli Təşəbbüs Partiyasının sədri Şant Arutunyanın oğlu, millətçi kimi tanınan Şaqen Arutyunyandır. Arutyunyan özü bu haqda bildirib: "Rusiya imperiyasının səfiri, şair Qriboyedovun abidəsinə Njdenin xatirə lövhəsinin təhqir olunmasına cavab olaraq qırmızı boya tökdüm. Mən bunu bilərəkdən dekabrın 2-də - Ermənistanın bolşevikləşdirilməsi və Rusiya xarici işlər naziri Sergey Lavrovun Bakıya səfəri günündə elədim". Ermənistanın aidiyyəti orqanları millətçi gəncin bu hərəkətinə hər hansı reaksiya verməyib. Onun bu hərəkətinə görə cəzalandırılıb-cəzalandırılmayacağı barədə də məlumat verilmir. Bu isə prosesin elə ermənilərin öz razılığı ilə baş tutması fikrini istisna etmir.

Beləliklə, ermənilər Njdenin qisasını böyük rus şairindən və diplomatından almağa çalışıblar. Halbuki, ermənilər indiki coğrafiyada, xüsusən də Dağlıq Qarabağda yaşadıqlarına görə məhz Qriboyedova və onun təmsil etdiyi Rusiya imperiyasına minnətdar olmalıdırlar. Qriboyedovun abidəsi də bu minnətdarlığın ifadəsi kimi İrəvanda ucaldılmışdı. İndi isə ermənilər onun abidəsini təhqir edir. Ekspertlər hesab edir ki, Qriboyedovun abidəsinin təhqir olunmasını Rusiya cavabsız qoymayacaq. Rusiyalı tarixçi Oleq Kuznetsov isə bu fonda bildirir ki, rus elitası artıq ermənilərə "adi yaramazlar" kimi baxır: "Bu prosesin içində olan bir şəxs kimi mən faşist Qaregin Njdenin abidələrinin sökülməsinin başlanmasını çoxdan gözləyirdim. Rusiya və Azərbaycanın bir çox sakini kimi mən də, narazı olmağıma baxmayaraq, anlayırdım ki, boş sözlərlə və emosiyalarla vəziyyəti dəyişmək mümkün deyil. Ona görə də qarşıma bu abidənin sökülməsi məqsədini qoydum, bunun üçün kifayət qədər tarixi və hüquqi sübutlar toplanmalı idi ki, yekunda da bu, həyata keçirildi. Bu sübutlar Moskvaya göndərildi və orada inzibati və siyasi cəhətdən ən yuxarı rəhbərliyə çatdırıldı, Njdenin lövhəsinin sökülməsi qərarı qəbul edildi". Kuznetsovun sözlərinə görə, xatirə lövhəsinin sökülməsindən sonra Rusiyanın siyasi elitasına yaxın olan yüksək vəzifəli moskvalı dostları ona zəng edərək, bu lövhənin sökülməsi ilə üzərində "ermənilərin Rusiyaya əbədi sadiqlik" şüarları yazılmış "stereotip divarını" yıxmağın mümkün olduğunu deyib: "Artıq Moskvanın yuxarı təbəqələrində ermənilər sadiq dostlar kimi deyil, özlərinin dedikləri kimi, "adi yaramazlar" olaraq qəbul edilirlər. Ermənilərin "qüsursuzluq" obrazı param-parça oldu və artıq Rusiyada digər kiçik Avropa xalqlarının təkəbbürlü millətçiliyi kimi, erməni millətçiliyinin tənqidi də mümkün olacaq. Azərbaycanın ideoloji qələbəsi də məhz bundan ibarətdir".




***Nahid SALAYEV***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# Azərbaycan və Ermənistan XİN başçılarının Bratislava görüşünə müharibənin qarşısının alınmasında son şans kimi baxılır

**Dağlıq Qarabağ münaqişəsi ətrafında yaranan vəziyyətin təhlili göstərir ki, bu gün işğalçı Ermənistan tam təklənmiş bir duruma düşməkdədir. Artıq ənənəvi hamilərinin işğalçıdan üz döndərməsi İrəvanın indiki Qarabağ siyasətini davam etdirməsini də müşkül hala gətirib.**

Bunlar fonunda dünya miyqasında Azərbaycana dəstəyin artması müşahidə olunmaqda, ölkəmizin haqq mövqeyi daha çox dəstək almaqdadır. Bakı bu fonda indi bütün dünyanın diqqətini ona yönəldir ki, Qarabağ münaqişəsi məhz Ermənistanın mövqeyi üzündən həllini tapmır və buna görə Ermənistana qarşı konkret addımlar atılmalıdır.

Digər tərəfdən, Azərbaycan həm də o məsələyə xüsusi diqqət yönəldir ki, mövcud Ermənistan rəhbərliyinin sərsəm bəyanatları münaqişənin dinc müstəvidə həllini əngəlləyir və müharibə faktorunu ön plana çıxarır. Bununla belə, Azərbaycan müəyyən müddət də sülh danışıqlarını davam etdirmək və bu da nəticə verməsə, onda digər çözüm variantlarını nəzərdən keçirməyə hazırdır. Hələlik isə əsas diqqət qarşıdakı təmaslara yönəlib. Rusiyanın xarici işlər naziri Sergey Lavrovu qəbul edərkən bu məsələyə toxunan Prezident İlham Əliyev bildirib: "Təəssüf ki, Ermənistanla Azərbaycan arasında münaqişənin nizamlanması istiqamətində nəzərəçarpan nəticələr olmayıb. Hesab edirəm ki, bunun əsas səbəbi Ermənistan rəhbərliyinin səmərəsiz siyasəti, xüsusən "Qarabağın Ermənistan olması" barədə bəyanatıdır. Şadam ki, həm sizin tərəfinizdən, həm də digər ölkələrdən olan həmsədrlər tərəfindən, yumşaq desək, bu qəribə bəyanata düzgün qiymət verilib. Biz Minsk Qrupunun həmsədrləri ilə əməkdaşlığı davam etdirəcəyik. Yaxın vaxtlarda Azərbaycanın və Ermənistanın Xarici İşlər nazirlərinin görüşü olacaq. Biz ümidvarıq ki, siz danışıqlar prosesində fəal iştirakınızı davam etdirəcəksiniz". Elə Sergey Lavrovun səsləndirdiyi fikirlərdən də belə bəlli olur ki, Moskva bu məsələdə Bakının mövqeyindən çıxış edir: "Biz bundan sonra da ortaq mövqelərimizin dəstəklənməsinə, Azərbaycan və Rusiya üçün xüsusi maraq doğuran mühüm məsələlərin həllinə kömək edəcəyik. Bu, Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasına aiddir. Biz həm Vyana sammitində, həm də sonradan nazirlərin Moskva görüşündə etimad tədbirləri, humanitar əlaqələrin, kütləvi informasiya vasitələri xəttilə əlaqələrin nizamlanması barədə əldə edilmiş razılaşmaların bu il təsdiqlənməsində və həyata keçirilməsində maraqlıyıq. Onlar tədricən reallaşır və ümidvaram ki, Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin bu həftə keçiriləcək görüşü bu prosesləri əlaqələndirməyə imkan verəcək. Eyni zamanda, sizinlə razıyam ki, siyasi nizamlama, uzunmüddətli nizamlama baxımından hələ çox iş görülməlidir. Burada sizin bu tezisinizi tam dəstəkləyirəm ki, hər iki tərəfin bəyəndiyi əsas prinsiplərə, BMT Nizamnaməsində və Helsinki Yekun Aktında təsbit olunmuş prinsiplərə zidd olan ritorikadan çəkinmək lazımdır".

Xatırladaq ki, Azərbaycan xarici işlər naziri Elmar Məmmədyarovla onun erməni həmkarı Zöhrab Mnatsakanyan arasında görüşün dekabrın 4-də ATƏT-in nazirlər görüşü çərçivəsində Bratislava şəhərində keçirilməsi nəzərdə tutulur. Yuxarıda səslənən fikirlərdən belə bəlli olur ki, bu görüşə ümidlər böyükdür. Lakin ekspertlər istisna etmir ki, bu və sonrakı görüşlərdən yaxın tezlikdə istənilən nəticə əldə olunmazsa, savaş variantının işə düşməsi qaçılmaz olacaq. Özü də bu dəfə Ermənistan hamilərinin, xüsusən də Rusiyanın yardımına ümid edə bilməz. Əvvəla, Lavrovun yuxarıda səslənn fikirlərindən aydın görünür ki, Moskva məsələnin beynəlxalq hüquq, yəni Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllini istəyir. Bunun üçün Ermənistanın müvafiq addımlar atmasının vacibliyini də yaxşı başa düşür. Məhz bu səbəbdən Ermənistan lazımi addımlar atmasa, Kreml İrəvanı Bakı qarşısında yalnız qoyacaq. Bunu Moskva Siyasət və Təhlil İnstitutunun direktor müavini, hərbi ekspert Aleksandr Xramçixin də xüsusi olaraq vurğulayır: "Ermənistan üzündən Qarabağda müharibə qaçılmazdır, çünki problem həll olunmamış qalıb. Belə vəziyyətdə təbii olaraq Bakı hücuma hazırlaşır. Azərbaycan öz torpaqları saydığı Qarabağı qaytarmağı düşünür. Başqa variant yoxdur. Bu baş versə, Moskva qarışmayacaq. Rusiya yalnız o halda Ermənistana kömək edə bilər ki, Azərbaycan Ermənistan Respublikası ərazisinə təcavüz etsin. Azərbaycanın isə belə bir niyyəti yoxdur". Onun sözlərinə görə, Ermənistan Qarabağ savaşında digər KTMT dövlətlərinə də bel bağlaya bilməz. Çünki bu ölkələrin heç biri Qarabağı Ermənistan ərazisi kimi tanımır. Erməni Milli və Strateji Araşdırmalar Mərkəzinin direktoru, politoloq Manvel Sarkisyan da Bakının İrəvanı Rusiya və digər KTMT üzvləri yanında çıxılmaz vəziyyətə saldığını vurğulayır. Onun sözlərinə görə, KTMT-dən çox şey gözləməyə ehtiyac yoxdur: "Hər birimiz bu günə qədər KTMT-nin necə fəaliyyət göstərdiyini bilirik: passiv olub və Ermənistan cəmiyyəti arasında heç bir inanca ilham verməyib, əksinə, mənfi münasibət var. Baş nazir Nikol Paşinyan vaxtilə deyirdi ki, KTMT ilə bağlı problemlər var və dəqiqləşdirmələr lazımdır. Amma faktdır ki, KTMT-yə üzv dövlətlər indiyə qədər Ermənistana qarşı fəaliyyət göstərib və mən hər hansı bir şeyin kəskin şəkildə dəyişəcəyini düşünmürəm. Əksinə, Azərbaycanın fəaliyyəti sayəsində Rusiya da bizdən üz döndərir. Amma burada əsas günah, təbii ki, Paşinyan hakimiyyətinin yanlış xarici siyasətidir. Elə Azərbaycan da bundan maksimal dərəcədə faydalanır və Qarabağ məsələsində Rusiyanı öz yanına çəkir". Sarkisyanın sözlərinə görə, KTMT 2016-cı ilin aprel döyüşləri zamanı etmədiyi kimi, Dağlıq Qarabağ ətrafında yaranacaq növbəti eskalasiyanın qarşısını almayacaq: "Əlbəttə, dəstək gözləmək sadəlövhlük olar. Dünya maraqlar üzərində qurulub. KTMT-nin heç vaxt bu cür məqsədləri olmayıb, Rusiya tərəfindən KTMT-nin yaradılması daha çox qonşularla əlaqələrdə təsiri böyütmək mexanizmi idi". Xatırladaq ki, torpaqlarını işğal etdiyi üçün Ermənistan istisna olmaqla, Azərbaycanın KTMT-yə üzv dövlətlərin hamısı ilə çox yüksək səviyyədə hərbi, iqtisadi, sosial və mədəni əlaqəsi var. Yeri gəlmişkən, rəsmi Bakı dəfələrlə bəyan edib ki, Azərbaycan torpaqlarını işğal etdiyi üçün Ermənistan regional əlaqələrdən və layihələrdən məhrum edilib. Bu isə ölkə iqtisadiyyatını təşkilata üzv olmayan xarici qüvvələrdən də asılı vəziyyətə salıb. KTMT-nin nizamnaməsində isə yalnız üzv dövlətlərin ərazi bütövlüyünün müdafiəsi öz əksini tapıb. Dağlıq Qarabağ və ətraf rayonlar KTMT-nin ərazisi deyil. Bura Azərbaycandır və onun öz ərazisini işğalçıdan azad etmək hüququ var. Bunu, yenə Ermənistan istisna olmaqla, təşkilatın digər üzvləri də açıq mətnlə bəyan edirlər. Bu fonda digər rus ekspert Yevgeni Mixaylov da vurğulayır ki, Ermənistanın yaranmış vəziyyətdən ciddi narahatlıq keçirməsi üçün əsaslar kifayət qədərdir. O bildirir ki, Rusiyadan və KTMT-dən əli üzülməkdə olan İrəvan məntiqə zidd hərəkət edərək, Bakının Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə həllinə dair konstruktiv danışıqlar barədə çağırışlarına məhəl qoymamağa davam edir. Bu isə Qarabağ məsələsinin həllində irəliləyiş istəyən Rusiyanı da ciddi narahat edir: "Moskva məsələnin həllində irəliəlyiş olmasında maraqlıdır, lakin bunu Ermənistan əngəlləyir. Xüsusən də Paşinyanın tez-tez təkrarlanan ziddiyətli mövqeyi vəziyyəti daha da mürəkkəbləşdirir. Fikrimcə, Nikol Paşinyanın populizmi, ziddiyyətli mövqeyi artıq erməni xalqının özünü də çox yorub. Ermənistan lideri iqtisadi bərpa və xarici siyasət problemlərini həll etmək vədlərini yerinə yetirmək əvəzinə vəziyyəti gərginləşdirməyə davam edir. Danışıqlar prosesində yalnız işğal olunmuş bölgələrdə yaşayan ermənilərin iştirak edə biləcəyi ilə bağlı deyilənlər heç bir ölçüyə sığmır. Siz əvvəlcə azərbaycanlı qaçqınları geri qaytarın və yalnız bundan sonra belə bəyanatlarla çıxış edin. Dialoq yalnız etnik təmizləmə nəticəsində doğma yurdlarından didərgin düşmüş bütün Qarabağ sakinlərinin iştirakı ilə təklif oluna bilər. Paşinyanın çağırışları yoxluğa aparan yoldur. Üstəlik bu, Azərbaycanı hədəflərinə çatmağa yaxınlaşdıran, yeni işğal olunmuş əraziləri geri qaytarmağa aparan bir yoldur. Çünki Ermənistanda vəziyyət pisləşir. Erməni gənclər ölkələrindəki iqtisadi vəziyyətin pisləşməsini çox gözəl şəkildə görürlər. Onlar üçün pul qazanmaq getdikcə çətinləşir. Və belə bir vaxtda İrəvan, daxili sosial problemləri həll etmək əvəzinə, qonşu ölkələrə qarşı təcavüzkar siyasətini davam etdirir. Bu isə Kremlin də xoşuna gəlmir. Rusiya Bakı ilə müttəfiqlik və tərəfdaşlıq münasibətləri qurmağa köklənib. Moskva bu münasibətləri artıq Erəmnistana görə qurban vermək niyyətində deyil". Bütün bunlar yaranmış vəziyyətdə Azərbaycanın mövqelərinin daha güclü hala gəldiyini, ona verilən dəstəyin artdığını göstərir. Ermənistanın bu halda yalnız duruma düşməsi onun mövqelərinin daha da zəifləməsi ilə müşayiət edilir. Təbii ki, bu vəziyyətdə güclü Azərbaycan, danışıqlar istənilən nəticəni verməsə, savaş yolu ilə problemi çözməli olacaq. Onda Azərbaycan qarşısında da işğalçı Ermənistanı heç kim müdafiə etməyəcək. Hadisələrin məhz bu səpkidə inkişaf edəcəyini bu gün Ermənistanda da müşahidə edənlərin, Paşinyan iqtidarına bu xüsusda müvafiq xəbərdarlıqlar ünvanlayanların sayı az deyil.

*Tahir TAĞIYEV*

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

# Ermənilər faşist Njdenin qisasını ruslardan Qriboyedovu təhqir etməklə aldılar

***Qasım Hacıyev:** "Ermənistan hökuməti Qriboyedovun heykəlinin təhqir edilməsini təşkil etməklə göstərmək istəyir ki, siz Njdedən əl çəkməsəniz, biz də heykəli kökündən çıxarıb ata bilərik"*

**Ermənilərin Qafqaza, xüsusən də Azərbaycan torpaqlarına köçürülməsi planının müəllifi və əsas icraçısı olan rus diplomatı, şair və dramaturqu Aleksandr Qriboyedova qarşı ermənilər nankorluq edirlər. Halbuki, Qriboyedovun erməniləri bizim ərazilərə köçürərək onlardan azərbaycanlılara qarşı alət kimi istifadə etmək ideyası olmasaydı, çar hökuməti onların Qafqaza köçürülməsi haqqında bəlkə də düşünməzdi.**

Amma tarixi reallıq budur ki, ermənilərin kütləvi olaraq İran və Türkiyə ərazisindən Azərbaycan torpaqlarına köçürülməsi, onların burada məskunlaşdırılması layihəsinin müəllifi Qriboyedov olub. O Qriboyedov ki, vaxtilə ermənilər ona İrəvanın mərkəzində heykəl ucaldıblar, indi isə bu heykəli təhqir edirlər. Səbəb isə Rusiyanın faşist Njdenin heykəlinin sökülməsi ilə bağlı etdiyi çağırışlar, bəzi Rusiya vilayətlərində Njdeyə aid büstlərin sökülməsi göstərilir.

Erməni mətbuatının yazdığına görə, İrəvanda dekabrın 2-də axşam saatlarında rus diplomatı, şair və dramaturqu Aleksandr Qriboyedovun abidəsi təhqir olunub. Bu haqda "Vereleg" adlı erməni saytı yazır. Abidəni təhqir edən və onun üzərinə qırmızı boya tökən isə yerli millətçi-fəal Şaqen Arutyunyandır. Arutyunyan özü bu haqda "Facebook"da bildirib. "Rusiya imperiyasının səfiri, şair Qriboyedovun abidəsinə Njdenin xatirə lövhəsinin təhqir olunmasına cavab olaraq qırmızı boya tökdüm" - deyə erməni millətçisi qeyd edib. Məlumatlara görə, o, "Vahid milli təşəbbüslər" partiyasının lideri Şant Arutyunyanın oğludur. "Mən bunu bilərəkdən dekabrın 2-də-Ermənistanın bolşevikləşdirilməsi və Rusiya xarici işlər naziri Sergey Lavrovun Bakıya səfəri günündə etdim" - Ş.Arutyunyan bildirib.

Xatırladaq ki, noyabrın 13-də Rusiyanın Krasnodar vilayətinin Armavir şəhərində yerli deputat Aleksey Vinoqradov faşist Njdeyə erməni kilsəsinin həyətində qoyulmuş xatirə lövhəsini qara boyayıb. Daha sonra yerli sakinlər lövhənin sökülməsi məsələsini qaldırıblar. Noyabrın 30-da lövhənin söküldüyü məlum olub.

Siyasi analitiklər və tarixçilər qeyd edirlər ki, ermənilər faşist cinayətkarı və başkəsəni Qaregin Njdenin qisasını böyük rus şairindən və diplomatından alıblar. Onlar haqlı olaraq vurğulayırlar ki, ermənilər indiki coğrafiyada, xüsusən də Dağlıq Qarabağda yaşadıqlarına görə məhz Qriboyedova və onun təmsil etdiyi Rusiya imperiyasına minnətdar olmaq əvəzinə, nankorluqlarından qalmırlar. Onlar hesab edirlər ki, Qriboyedovun abidəsi də bu minnətdarlığın ifadəsi kimi İrəvanda ucaldılmışdı. İndi isə ermənilər abidəni və Qriboyedovun ruhunu təhqir edirlər. Bu, erməni nankorluğunun bariz nümunəsidir və Rusiyanı düşündürməlidir. Bu da onların fikridir.

Azərbaycan Milli Elmlər Akademiyasının Qafqazşünaslıq İnstitutunun ermənişünaslıq şöbəsinin müdiri, professor Qasım Hacıyev "Bakı-Xəbər"ə bildirdi ki, faşist Qaregin Njdenin qisasını böyük rus şairi və diplomatının heykəlindən almaq böyük nankorluqdur. Q.Hacıyevin sözlərinə görə, ermənilərin Qriboyedovun heykəlini bu şəkildə təhqir etməsi yalnız Njdeyə görə deyil, həm də Azərbaycan və Rusiya arasında inkişaf edən səmərəli ikitərəfli əlaqələrlə bağlıdır. Müsahibimizin dediyinə görə, bu gün Rusiyada faşist Njdenin İrəvandakı heykəlinin sökülməsi ilə bağlı başlanan hərəkat, eləcə də Rusiya vilayətlərində onun heykəlinin sökülməsi prosesinin həyata keçirilməsi erməniləri möhkəm qəzəbləndirib. Ermənilərin Qriboyedovun heykəlini təhqir etməsinin kökündə böyük siyasi mənanın gizləndiyini deyən Q.Hacıyev hesab edir ki, erməni şovinstləri bu addımı atmaqla həm də Rusiyanı şantaj etmək məqsədi güdürlər. "Bu gün Ermənistanda vəziyyət nəzarətdən çıxıb. Orada nə baş verirsə, hökumət "bizim bu işdən xəbərimiz yoxdur" deyir. Başa düşə bilmirəm, bu necə ölkədir ki, baş verənlərdən hökumətin xəbəri olmur. Njdeyə heykəl qoyulur, indiki hakimiyyət deyir bizim xəbərimiz yoxdur. Tələt Paşanın başını kəsən mənfur terrorçuya heykəl qoyulur, heykəldə Tələt paşa təhqir olunur, hökumət yenə də özünü xəbərsiz kimi aparır. İndi də ermənilərin Qafqaza, xüsusən də Azərbaycan torpaqlarına köçürülməsinin banisi olan Qriboyedovun heykəli təhqir olunur, hökumət yenə də hər hansı bir açıqlama vermir, iş yenə də ictimaiyyət nümayəndələrinin boynunda qalır. Qriboyedov olmasaydı, heç ermənilərin ayaqları bizim torpaqlara dəyməzdi. Ermənilər öz "xaç ata"ları Qriboyedovun heykəlini təhqir etməklə Rusiyanı şantaj etmək istəyirlər. Ermənistan hökuməti Qriboyedovun heykəlinin təhqir edilməsini təşkil etməklə göstərmək istəyir ki, siz Njdedən əl çəkməsəniz, biz də heykəli kökündən çıxarıb ata bilərik, hələlik isə onu təhqir etməklə kifayətləndik. Son zamanlar Rusiya və Azərbaycan arasında əlaqələrin daha da inkişaf etməsi, ölkəmizin Birinci vitse-prezidenti Mehriban Əliyevanın Rusiyaya rəsmi səfəri zamanı əldə edilən uğurları, onun ardınca isə Lavrovun Bakı səfəri Ermənistan hakimiyyətinin ciddi narahatlığına səbəb olub. Rusiya və Azərbaycan arasında yaxınlaşmalar Ermənistanı narahat etməyə bilməz. Faşist Njdenin heykəlinin sökülməsinin vacibliyi ilə bağlı çağırış Azərbaycan Prezidentinə məxsusdur. Bu da erməniləri narahat edir".



*"Birinci vitse-prezident Mehriban Əliyevanın Rusiyaya rəsmi səfəri zamanı əldə edilən uğurlar, onun ardınca isə Lavrovun Bakı səfəri Ermənistan hakimiyyətinin ciddi narahatlığına səbəb olub"*

Q.Hacıyev, həmçinin, bildirdi ki, Qriboyedovun ölümü də ermənilərin fitnəsi, hiyləsi və məkri ilə baş verib. Qriboyedovun İranda vəhşicəsinə öldürülməsinin səbəbkarının müsəlmanlar deyil, ermənilər olduğunun tarixi faktlarla sübut edildiyini deyən Q.Hacıyev bildirdi ki, o, ermənilərin əli ilə elə ermənilərə görə öldürülüb: "Ermənilər nankor toplumdur. Qriboyedovun öldürülməsi də ermənilərlə bağlıdır. Onu İranda müsəlmanlar yox, ermənilər öldürüblər. Sonra bunu müsəlmanların üstünə atmaq istəyiblər, amma buna nail ola bilmədilər.

**İndi də Qriboyedovun heykəlini təhqir ediblər, amma Ermənistanda ermənilərdən başqa millət yaşamadığı üçün, bunu heç bir millətin boynuna qoya bilməyiblər. Ermənilər onlara görə öldürülən Qriboyedova qarşı ən böyük tarixi nankorluqlarını ortaya qoydular".**

*İradə SARIYEVA*

# Prezident "Azərbaycan transformasiya mərhələsindədir" fikirlərində nəyi nəzərdə tutdu...

## *Aydın Hüseynov: "Bu o deməkdir ki, aparılan islahatlar kompleks xarakterli və davamlı olacaq"*

**"Biz hazırda çox aktiv transformasiya mərhələsindəyik". Bunu Prezident İlham Əliyev CISCO şirkətinin qlobal innovasiyalar üzrə vitse-prezidenti Qay Didrixin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edərkən deyib.**



Dövlət başçısının sözlərinə görə, struktur islahatları, siyasi, iqtisadi islahatlar, məsuliyyətin gücləndirilməsi ilə bağlı tədbirlər ölkəyə faydalar gətirir: "Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi sizin üçün yaxşı tərəfdaşdır. Biz gələcəklə bağlı planlarımızı, Azərbaycanın müasirləşdirilməsi, informasiya texnologiyaları sektorunun inkişafı ilə bağlı planlarımızı dəfələrlə müzakirə etmişik. Biz hazırda çox aktiv transformasiya mərhələsindəyik. Struktur islahatları, siyasi, iqtisadi islahatlar, məsuliyyətin gücləndirilməsi ilə bağlı tədbirlər, şəffaflıq - bütün bunlar hamısı ölkəyə böyük faydalar gətirir, həm siyasi, həm də iqtisadi".

Prezident onu da qeyd edib ki, CISCO şirkəti ilə hakimiyyət orqanları arasında əməkdaşlıq çox yaxşı səviyyədədir.

Bütün bu deyilənlərin fonunda, Prezident "Azərbaycan transformasiya mərhələsindədir" deyərkən nəyi nəzərdə tutur?

Sözügedən məsələyə aydınlıq gətirən millət vəkili Aydın Hüseynovun sözlərinə görə, burada söhbət islahatların kompleks xarakterli olmasından və bütün sahələri əhatə etməsindən gedir: "Bu o deməkdir ki, aparılan islahatlar kompleks xarakterli və davamlı olacaq. Yəni islahatlar sistemli olacaq və bütün sahələri əhatə edəcək. Nəzərə almaq lazımdır ki, Azərbaycan ən çox islahat aparan ölkələr sırasındadır. Bununla belə, aparılan islahatlar kompleks xarakter daşıyır. Çünki həm struktur, həm də iqtisadi islahatlar aparılır. Xüsusən də kadr sahəsində aparılan islahatlara mühüm önəm verilir. Bunun nəticəsidir ki, Azərbaycanda aparılan islahatlarla bağlı beynəlxalq qurumlar müsbət fikirdədirlər. Hazırlanan hesabatlarda Azərbaycan öncül yerlərdə qərarlaşıb. Mötəbər reytinq cədvəllərində ön sırada yer tuturuq. Bu zaman həm ölkənin imici yüksəlir, həm də iqtisadi qüdrətimiz artır. Prezident İlham Əliyevin qətiyyəti sayəsində Azərbaycan dünyada gedən proseslərə tez bir zamanda adaptasiya olunur. Ölkə başçısının gördüyü işlərin nəticəsidir ki, Azərbaycanda ciddi dəyişikliklər baş verir".

*"Ölkə başçısının gördüyü işlərin nəticəsidir ki, Azərbaycanda ciddi dəyişikliklər baş verir"*

***Vidadi ORDAHALLI***

# Azərbaycanda iqtisadiyyat rəqəmsallaşdırılsa...

## *Natiq Cəfərli: "Rəqəmsallaşdırma statistik məlumatların daha tez və elektron formatda həyata keçirilməsində mühüm rol oynaya bilər"*

**Rəqəmsal texnologiyaların inkişafı bəşəriyyət qarşısında tərəqqi üçün yeni üfüqlər açır. Hazırda dünya ölkələri yeni inkişaf mühitinə qədəm qoyaraq rəqəmsallaşma istiqamətində yeni təşəbbüslər irəli sürürlər. Belə bir dövrdə rəqəmsal texnologiyaların tətbiqi, xüsusilə də iqtisadiyyatın rəqəmsallaşması və rəqəmsal iqtisadiyyatın qurulması ən çox müzakirə olunan məsələlərdəndir.**



Texnoloji tərəqqi dünya üzrə müxtəlif regionlarda fərqli səviyyədə olduğundan, dövlətlər də rəqəmsallaşma üzrə fərqli inkişaf səviyyəsinə sahibdirlər və ümumilikdə, bir neçə qrupa bölünürlər. Belə ki, ölkələr rəqəmsallaşma üzrə liderlər, əsas qrup, geri qalanlar, yeni başlayan liderlər və rəqəmsallaşmada ötmə səviyyəsində olan dövlətlər kimi təsnif olunurlar. Dünyada enerji və nəqliyyat mərkəzi olaraq tanınan, Avropa İttifaqı və bir sıra dövlətlərin enerji təhlükəsizliyinə öz töhfəsini verən Azərbaycanda artıq iqtisadiyyat rəqəmsallaşmaya qədəm qoyur. Yeni dövr Azərbaycanın da qarşısında zamanın çağırışlarına cavab vermək, iqtisadi inkişafda yeni hədəflərə çatmaq kimi vəzifələr formalaşdırır. Sürətli inkişaf səviyyəsində olan dövlətlərdə olduğu kimi, ölkəmiz üçün də iqtisadiyyatın rəqəmsallaşdırılması, rəqəmsal iqtisadiyyatın qurulması, innovasiyaların tətbiqi prioritetlər sırasındadır. Hazırda Azərbaycan Respublikası iqtisadiyyatın rəqəmsallaşması, rəqəmsal iqtisadiyyatın qurulması və dayanıqlı inkişaf üçün bütün imkanlara sahibdir. Qeyd edək ki, ölkəmizin yerləşdiyi unikal coğrafi mövqe, təbii resursları, həmçinin, qiymətli insan resursları, eləcə də son illər ərzində Prezident İlham Əliyev tərəfindən qəbul olunmuş dövlət proqramları, sərəncam və fərmanlar buna tam imkan verir.

Prezident İlham Əliyev dekabrın 2-də CISCO şirkətinin qlobal innovasiyalar üzrə vitse-prezidenti Qay Didrixin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edərkən iqtisadiyyatın rəqəmsallaşdırılması məsələsinə də toxunub. O qeyd edib ki, iqtisadiyyatımızın rəqəmsallaşdırılması hazırda bizim gündəliyimizdədir: "Bu yaxınlarda Prezident Administrasiyasında aparılan struktur islahatlarından sonra bizim müxtəlif hökumət strukturlarının bu sahədəki fəaliyyətlərini koordinasiya edəcək və özəl sektorun inkişafını asanlaşdıracaq innovasiya departamentimiz var. Biz hazırda həqiqətən çox vacib beynəlxalq platformaya çevrilən "Bakutel" sərgisinin açılışı ərəfəsindəyik. Bu, təkcə sərgi və bu sahədəki əsas şirkətlərin nailiyyətlərinin təqdimatı deyil, həm də işgüzar əlaqələrin gücləndirilməsi baxımından imkandır. Mən, ənənəvi olaraq, "Bakutel" sərgisində iştirak edirəm, ilk növbədə, bu məsələnin inkişafı ilə bağlı hökumətin mövqeyini göstərmək baxımından. İkincisi də bir il ərzində hansı yeniliklərin olduğunu görmək baxımından da mənim üçün maraqlıdır. Çünki zaman çox sürətlə keçir. Bu sektorda dəyişikliklər zamandan da sürətlə baş verir".

*"...şəxsi təmasların minimuma endirilməsinə səbəb olacaq"*

Maraqlıdır, iqtisadiyyatın rəqəmsallaşdırılması nə deməkdir və Azərbaycana nə verəcək?

İqtisadçı-ekspert Natiq Cəfərli "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, iqtisadiyyatın rəqəmsallaşdırılması ölkə iqtisadiyyatının inkişafı baxımından əhəmiyyətlidir: "İqtisadiyyatın rəqəmsallaşdırılması, ilk növbədə, statistik məlumatlara əlçatanlığı təmin edəcək. Məlumdur ki, ölkədə statistik məlumatların elektronlaşdırılması və əlçatanlığı aşağı səviyyədədir. Hətta Prezident son müşavirələrdə çıxışı zamanı statistik məlumatların çox zaman reallığı əks etdirmədiyini də dilə gətirib. Bu rəqəmsallaşdırma statistik məlumatların daha tez və elektron formatda həyata keçirilməsində, daha tez əldə olunmasında mühüm rol oynaya bilər.

Həmçinin, iqtisadiyyatla məşğul olan dövlət orqanları ilə vətəndaşlar arasında fiziki təmasın tamamilə minimuma endirilməsi də iqtisadiyyatın rəqəmsallaşdırılmasına aiddir. Lisenziyaların alınması, icazələrin verilməsi, hər hansı bir vergi gömrük rüsumlarının ödənilməsi və digər dövlət orqanları ilə təmas yarada biləcək amillərdə insan faktorunun, şəxsi təmasların minimuma endirilməsi deməkdir. Ümumiyyətlə, iqtisadiyyatın rəqəmsallaşdırılması dedikdə bütün əməliyyatların elektronlaşdırılması, internet üzərindən aparılmasından söhbət gedir".

***Günel CƏLİLOVA***

**Gələn ildən etibarən Azərbaycana daxil olan xarici valyutanın həcmində əhəmiyyətli dərəcədə artım olması proqnozlaşdırılır. Bunun əsas səbəbi TANAP layihəsinin uğurla başa çatması, onun davamı olan TAP-ın da gəlin ilin ortasına kimi istifadəyə tam hazır vəziyyətə gətriləcəyi ilə bağlıdır.**

# TANAP qaz kəməri - xaricdən Azərbaycana axan yeni "valyuta kəməri..."

Xatırladaq ki, TAP-ın 90 faiz hissəsinin çəkilişi artıq başa çatıb. TAP kəməri vasitəsilə Azərbaycan Avropa bazarına ilkin mərhələdə 10, ikinci mərhələdə 20 milyard kubmetr qaz nəql edəcək. Gələcəkdə Avropa və Türkiyə bazarına çıxarılacaq Azərbaycan qazının həcmi 31 milyard kubmetri ötəcək.

Bütün bunlar fonunda Azərbaycana, neftlə yanaşı, artıq təbii qaz satışından da böyük həcmdə vəsait daxil olacaq. Özü də bu vəsaitin daxil olmasına məhz gələn ildən start veriləcək.

Azərbaycan Dövlət İqtisad Universitetinin iqtisadiyyat kafedrasının professoru Elşad Məmmədov da vurğulayır ki, TANAP layihəsinin reallaşması ölkəmizin makroiqtisadi göstəricilərində aktiv şəkildə öz əksini tapacaq: "TANAP qaz kəmərinin tam istifadəyə verilməsi Azərbaycan iqtisadiyyatının inkişafı baxımından dövlətimizin başçısı tərəfindən reallaşdırılan xarici iqtisadi siyasətin növbəti bir təntənəsi kimi səciyyələndirilə bilər. Çünki nəzərə almaq lazımdır ki, enerji daşıyıcıları bazarındakı volatillik, gərginlik, o cümlədən enerji daşıyıcılarının idxal vasitələrində də gərginliyə səbəb olur. Heç də təsadüfi deyil ki, bu gün artıq elmi cəhətdən əsaslandırılmış proqnozlara görə, müəyyən müddətdən sonra uzun-uzadı ixrac kəmərlərinin çəkilməsi iqtisadi cəhətdən rentabelliyini itirə bilər. Bu baxımdan Azərbaycanın bu layihəni məhz vaxtında reallaşdırması çox müsbət haldır. Mən Azərbaycanın deyəndə bunu təsadüfi demirəm, çünki bu layihənin həyata keçirilməsində ölkəmizin və dövlətimizin başçısının müstəsna rolu var. Bütün bunlar onu deməyə əsas verir ki, məhz Azərbaycanın bu layihənin vaxtında reallaşdırması milli iqtisadiyyatımızın inkişafı, o cümlədən xarici iqtisadi siyasətimizin dinamikası nöqteyi-nəzərdən dövlətimizin başçısı tərəfindən strateji yanaşmanın düzgün və vaxtında formalaşmasını göstərdi. Ona görə də xarici iqtisadi siyasət nöqteyi-nəzərdən hesab edirəm ki, Azərbaycan növbəti uğurunu qazandı və digər tərəfdən unutmayaq ki, bu layihənin reallaşması ölkəmizin makroiqtisadi göstəricilərində də aktiv şəkildə öz əksini tapacaq. Hesablamalarıma görə, illik təxminən 3 milyard ABŞ dolları Azərbaycana daxil olacaq, bu çox böyük rəqəmdir". Aydındır ki, ekspert tərəfindən səslənən rəqəm həm tədiyyə balansında müsbət nəticələrə səbəb olacaq, həm də bütövlükdə daxili valyuta və maliyyə bazarında xeyli dərəcədə müsbət dinamikaya şərait yaradacaq.




Bir məqamı da xatırladaq ki, Qaz İxracatçısı Ölkələri Forumu da Azərbaycanın Avropa üçün enerji sahəsində oynadığı rolun daha da yüksələcəyini və ölkənin enerji satışından böyük miqdarda gəlir əldə edəcəyini bildirib. Bunlar o fonda baş verir ki, Avropanın təbii qaza tələbi artır. Qaz İxracatçısı Ölkələri Forumu bəyan edir ki, qısamüddətli perspektivdə Avropaya boru kəmərləri ilə nəql edilən qazın həcmi artacaq. Yeni qaz kəmərlərinin istismara verilməsi Avropa ölkələrinə əlavə 102,5 milyard kubmetr qaz əldə eləməyə imkan verəcək. Bu fonda xüsusi qeyd edilir ki, 2020-ci ildə "Cənub Qaz Dəhlizi"nin ikinci mərhələsi olan TAP-ın istifadəyə verilməsindən sonra Azərbaycandan Avropaya boru kəmərləri ilə ixrac edilən qazın həcmi 16 milyard kubmetr artacaq. Bütün bunlar nəticə etibarı iləAzərbaycana daxil olan valyutanın da miqdarını xeyli yüksələcək. Xatırladaq ki, 2018-ci ildə Azərbaycanın strateji valyuta ehtiyatları 44,9 milyard dollar olub. Cari ilin ötən dövrü ərzində isə valyuta ehtiyatları artıq 50 milyard dolları keçib. Amma gələn ildən etibarən valyuta ehtiyatlarının artım miqdarı daha intensiv xarakter daşıyacaq.

Türkiyədə fəaliyyət göstərən Avrasiya İqtisadi Əlaqələr Dərnəyinin sədri Hikmət Ərən isə bildirir ki, qaz kəmərləri Azərbaycana, iqtisadi sahə ilə yanaşı, siyasi müstəvidə də böyük üstünlüklər qazandırır:"TANAP ideyasının ortaya çıxması və hazırkı vəziyyəti sözün əsl mənasında Azərbaycan və Türkiyə xalqları üçün bəxtiyarlıqdır. Türkiyə tarixdə ilk dəfədir ki, özünün təbii qaz tələbatını indiki qədər rahat yolla və təhlükəsiz qaydada təmin edir. Bu təchizat bütün parametrlər üzrə təhlükəsizlik deməkdir. Eyni zamanda, Azərbaycan da karbohidrogen ehtiyatlarının ixracı ilə bağlı öz maraqlarını təmin edən qərarlar verir və bunu reallığa çevirir. Avropa istehlakçıları TANAP-dan bəhrə gördükcə Azərbaycan və Türkiyənin bundan sonrakı birgə layihələrində iştirak etməyə xüsusi maraq göstərəcəklər". Bütün bunlar isə qarşıdakı müddət ərzində Azərbaycanın Avropa istiqamətində yeni mühüm transmilli layihələrə də start verəcəyini aydın göstərir. Təbii ki, bu da ölkəyə böyük həcmdə valyuta daxil olmasını şərtləndirəcək. Beynəlxalq qiymətləndirmələrə görə, Azərbaycanın valyuta ehtiyatları qarşıdakı dövrdə sürətlə artacaq. Bunu şərtləndirən başlıca səbəb enerji resursları ilə yanaşı, həm də qeyri-neft sektorudur. Azərbaycanın hazırda ümumdaxili məhsulunun üçdə iki hissəsindən çoxu məhz qeyri-neft sektorunun hesabına formalaşır. Ekspertlər bildirir ki, turizm, nəqliyyat, kənd təsərrüfatı, informasiya-kommunikasiya sektoru tükənməyən gəlir mənbəyidir ki, bu sahədə də işlər kifayət qədər uğurlu qurulub. Digər tərəfdən, dünyanın bir çox yerlərində Azərbaycanın sənaye evləri və ticarət mərkəzləri açılıb.

**Bunlar da Azərbaycan brendinin dünyaya çıxmasını şərtləndirən amillərdir. Eləcə də faktdır ki, Azərbaycan artıq Avrasiya məkanının nəqliyyat qovşağına çevrilib. Şərq-Qərb, istərsə də Şimal-Cənub istiqaməti üzrə nəqliyyat qovşağının işə düşməsilə bu istiqamətdən də ölkəyə valyuta axını sürətlə artır. Belə vəziyyətdə artan valyuta ehtiyatları Azərbaycanı iqtisadi cəhətdən daha qüdrətli ölkəyə çevirir.**

***Ramil QULİYEV***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

# Qaçqın və məcburi köçkünlərin, əhalinin sosial cəhətdən qayğıya ehtiyacı olan təbəqələrinin problemlərinin həlli ilə bağlı həyata keçirilən tədbirlərin işıqlandırılması



**Dünyaya sülh və əminamanlıq mesajları verən, multikulturalizmin, tolerantlığın dəyişməz ünvanı olan Azərbaycan Ermənistan silahlı qüvvələrinin təcavüzü nəticəsində qaçqın və məcburi köçkün problemi yaşamağa məhkum olub. Müasir dünyanın bir nömrəli qayğısına çevrilən qaçqın-məcburi köçkün probleminin həlli gerçəkdən müşkülə düşüb.**

Dünya üzrə qaçqınların sayının artması, öz evini, yurdunu məcburiyyət qarşısında tərk edənlərinin çoxalması beynəlxalq aləmi ciddi narahat edir. İnsanlar öz evlərini illərlə davam edən aramsız müharibələr, təcavüzlər, təbii fəlakətlər zamanı tərk edib başqa bir təhlükəsiz yerə sığınmaq istəyirlər, amma bir çox ölkədə qaçqın və məcburi köçkünlər heç də duz-çörəklə qarşılanmırlar.

Ermənistanın torpaqlarımıza təcavüzü nəticəsində qaçqın və məcburi köçkünə çevrilən soydaşlarımız illərdir öz doğma yurdlarına qayıtmaq ümidi ilə yaşayırlar. Azərbaycan xalqı tarixdə ən çox soyqırıma məruz qalan, bir əsrdə bir neçə dəfə deportasiya edilən xalq olaraq zaman-zaman qaçqınlıq və məcburi köçkünlük problemi yaşayıb. Ermənistan silahlı birləşmələrinin işğalı nəticəsində Dağlıq Qarabağın azərbaycanlılar yaşayan 126 yaşayış məntəqəsi zorla boşaldılıb, Dağlıq Qarabağın ətrafındakı rayonlardan, həmçinin, Ermənistanla həmsərhəd olan yaşayış məntəqələrindən 700 min nəfərədək soydaşımız köçkün düşüb, öz evlərindən məhrum olunaraq respublikanın 62 şəhər və rayonunda məskunlaşıb. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi nəticəsində 20 min azərbaycanlı həlak olub, 100 min nəfər yaralanıb, 50 min insan isə müxtəlif dərəcəli xəsarət alıb. Hazırda Azərbaycanda 1 milyon 200 mindən çox qaçqın və məcburi köçkün var.

Məlum olduğu kimi, Heydər Əliyev prezidentlik fəaliyyəti dövründə yurdlarından didərgin düşən soydaşlarımızın problemlərinin həllini daim diqqətdə saxlayıb, bununla bağlı irimiqyaslı tədbirlər həyata keçirib. H.Əliyevin 1993-2003-cü illərdə münaqişənin aradan qaldırılması istiqamətindəki fəaliyyəti, qaçqın və məcburi köçkünlərə xüsusi qayğısı, çadır düşərgələrinin ləğvi ilə əlaqədar verdiyi qərarlar sonrakı işlər üçün təməl olub. Onun 17 sentyabr 1998-ci il tarixli Sərəncamı ilə təsdiqlənən "Qaçqınların və məcburi köçkünlərin problemlərinin həlli üzrə" Dövlət Proqramına əsasən, soydaşlarımız üçün yeni qəsəbələr salınmağa başlanıb. Məcburi köçkünlərin mənzil-məişət məsələlərinin həlli, onların məşğulluğunun təmin edilməsi istiqamətində önəmli addımlar atılıb.

Qaçqın və məcburi köçkünlərin, eləcə də əhalinin aztəminatlı təbəqəsinin sosial rifah halının yüksəldilməsi üçün dövlət tərəfindən kifayət qədər iş görülür. Onların sosial problemlərinin həlli isiqamətində qəbul olunan sənədlər, sosial paketlər bu qəbildən olan insanların sosial müdafiəsində mühüm rol oynayır. Azərbaycan dövlətinin iqtisadiyyatı gücləndikcə, gəlirləri artdıqca, dövlət bu istiqamətdə əldə edilən gəlirləri əsasən sosial sferaya yönəldir və vəsait hesabına qaçqın və məcburi köçkünlər üçün yeni tipli qəsəbələr salınır, məktəblər tikilir, onların müavinətləri artırılır. Sözsüz ki, qaçqın və məcburi köçkünlərlə yanaşı, sosial cəhətdən qayğıya ehtiyacı olan vətəndaşların da sosial rifah halının yüksəldilməsi üçün işlər görülür, onlara verilən pensiya və müavinətlər qaldırılır.

Prezident İlham Əliyev qaçqın və məcburi köçkünləri narahat edən problemlərin həlli istiqamətində görülən çox böyük işlərə, geniş layihələrə rəhbərlik edir. Dövlət başçısının 2004-cü il 1 iyul tarixli Sərəncamı ilə təsdiq edilən "Qaçqınların və məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması və məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"nın və sonradan həmin sənədə 2007-ci il 31 oktyabr, 2011-ci il 21 fevral tarixli sərəncamlarla təsdiqlənən əlavələrin icrası uğurla reallaşdırılıb.

Heydər Əliyev Fondu da qaçqın və məcburi köçkünlərin üzləşdikləri çoxsaylı problemin dünya ictimaiyyətinə çatdırılmasına və onların həllinə diqqət yetirir. Fondun vitse-prezidenti Leyla Əliyevanın rəhbərliyi ilə həyata keçirilən "Xocalıya ədalət" kampaniyası artıq bütün dünyaya yayılıb.

Neçə ildir Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüququn norma və prinsiplərinə və bu sahədə qəbul edilən sənədlərə əsaslanaraq, ölkəmizin ərazi bütövlüyü çərçivəsində həlli üzrə danışıqlar aparılır. Dövlət orqanlarından, beynəlxalq təşkilatlardan alınan müvafiq təkliflərlə bağlı "Böyük Qayıdış" proqramının layihəsinin hazırlanması işləri davam etdirilir. Bu layihə həm işğal olunan ərazilərə dəyən ziyanın dəqiq hesablanmasına, həm də torpaqlar işğaldan azad edildən dərhal sonra bərpa və yenidənqurma işlərinə başlamağa imkan verəcək.

Xatırladaq ki, 2007-ci ildən etibarən Azərbaycanda çadır düşərgələrinin ləğvi prosesi başladı və bu proses çox uğurla başa çatdı. Qeyd etdiyimiz kimi, qaçqın və məcburi köçkünlər üçün həm paytaxtda, həm paytaxtyanı qəsəbələrdə, həm də rayon və kəndlərdə böyük qəsəbələr salınıb. Kürdəxanıda, Qaradağ rayonunda, Abşeronun Masazır, Mehdiabad, Sabunçunun Ramana qəsəbələrində müasir tipli binalar inşa olunub. Bununla yanaşı, Heydər Əliyev Fondu tərəfindən alınan 465 mənzilə Binəqədi rayonunda yerləşən Təcili Tibbi Yardım Stansiyasının yarımçıq binasından məcburi köçkün ailələrinin köçürülməsi, habelə Sumqayıtdakı 1005 məcburi köçkün ailəsinin yeni tikilən yaşayış binalarında mənzillə təmin olunması onlara göstərilən qayğı və diqqətin bariz ifadəsidir. Azərbaycanın iqtisadi qüdrəti artdıqca, sosial sahənin inkişafına daha böyük önəm verilir.

Azərbaycan torpaqlarının düşmən tapdağından azad edilməsi dövlətimizin və xalqımızın ən böyük arzusudur. Yağıdan təmizlənən hər qarış torpağın cənnətə çevriləcəyi gün, əlbəttə, uzaqda deyil.

İndiyə qədər azad edilən ərazilərimizdə qəsəbələr salınıb. Horadiz şəhəri, demək olar ki, yenidən qurulub və bu gün ən gözəl yaşayış yerlərindən biridir. Şıxarx qəsəbəsində mindən çox köçkün ailəsi məskunlaşıb. Yüz əlli evlik Cocuq Mərcanlıda müasir infrastruktur, iş yerləri, kommunikasiyalar yaradılıb.

Məcburi köçkünlərin sosial şəraiti ildən-ilə yaxşılaşır, üzləşdikləri problemlərin həllinə həssaslıqla yanaşılır. Son bir neçə ayda Prezident İlham Əliyev əhalinin sosial vəziyyətinin yaxşılaşdırılması ilə bağlı bir sıra sərəncamlar imzaladı. Həmin sərəncamlar sırasında məcburi köçkünlərin müavinətlərinin 50 faiz artırılmasını özündə əks etdirən sənəd dövlətimizin onlara diqqətinin əyani ifadəsidir.

Prezident İlham Əliyev dəfələrlə "Bizim əsas məqsədimiz məcburi köçkün soydaşlarımızı doğma yurdyuvalarına qaytarmaq və orada onların əvvəlkindən də yaxşı şəraitini təmin etməkdir" deyib.

2019-cu il Azərbaycanda, əvvəlcədən proqnozlaşdırıldığı kimi, sosial rifah ili oldu və bu ilin fevral ayından başlayaraq bu sahədə genişmiqyaslı işlər həyata keçirilməyə başladı. İlin ilk iki ayında sosial sahədə atılan addımlar heç də təsadüfi deyildi, bu addımlar planlı, Azərbaycan dövlətinin sosial-iqtisadi inkişafına, dövlət büdcəsinin imkanlarına, hazırlanan proqramlara uyğun olaraq həyata keçirilir. Ardıcıl olaraq imzalanan sərəncamlar da bir və ya iki ayın işi deyil, onların üzərində aylardır iş gedib. Prezident İlham Əliyevin rəhbərliyi ilə keçirilən iqtisadi və sosial məsələlərlə bağlı müşavirələrdə əhalinin sosial müdafiəsi məsələsi irəli çəkildi. Ölkə Prezidenti İlham Əliyevin əhalinin sosial müdafiəsi istiqamətində atdığı addımlar dövlət başçısı, millətin lideri kimi xalqın qayğısına qalmasının əyani nümunəsi və ifadəsidir.

Prezidentin bu ilin ilk iki ayında imzaladığı sərəncamlar təxminən 2 milyon 2 min nəfəri əhatə edirdisə, 26 fevral tarixində məcburi köçkünlər və onlara bərabər tutulan şəxslər üçün vahid aylıq müavinətlərin artırılması ilə bağlı sərəncamı ilə artıq bu rəqəm 3 milyona yaxınlaşdı. Bununla da dövlət büdcəsinin üçdə birindən çoxu sosial xərclərə yönəlmiş olur ki, bu da büdcəmizin sosialyönümlü olduğunun əlamətidir. Ölkə başçısının da söylədiyi kimi, bu sərəncamlar davamlı olacaq. Minimum, orta aylıq əmək haqları, pensiyalar artacaq, yeni iş yerləri açılacaq, bütün bunlar əhalinin sosial rifah halının güclənməsinə, ölkəmizi sosial rifah dövlətinə gətirib çıxaracaq. Bütün bu deyilənlərin hamısı baş verdi. Nəinki qaçqın və məcburi köçkünlərin, aztəminatlı ailələrin, sosial cəhətdən problem yaşayanların, eləcə də əhalinin bütün təbəqələrinin həyatında bu proses baş verdi.

Dövlət başçısının həyata keçirdiyi uğurlu sosial siyasətdən bütün Azərbaycan vətəndaşları bəhrələnir və öz həyatlarını təmin edirlər. Bir ildə Prezident tərəfindən ard-arda verilən sərəncamların hamısı əhalinin yaşam tərzinin, maddi rifahının yüksəlməsinə, cəmiyyətin hərtərəfli inkişafına yönəldi.

Əlbəttə, bütün bu göstəricilər Azərbaycanın media vasitələri tərəfindən ictimaiyyətə çatdırıldı və əhali dövlətin bütün sahədə həyata keçirdiyi bütün layihələrdən, yeniliklərdən xəbər tutdu. Bu məsələnin təşviq olunmasında KİV-in xüsusi rol oynadığı şübhəsizdir. Onlar bu istiqamətdə kifayət qədər iş görüb, məlumatların yayılmasını təmin ediblər.

*İradə SARIYEVA*

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun keçirdiyi müsabiqəyə təqdim edilir.**

**Zorakılıq və onun gündən-günə artan formaları dünyanın ən qorxulu ictimai problemlərindəndir. Bu zorakılıq daha çox azyaşlı uşaqlara qarşı yönələndə isə məsələnin daha təhlükəli həddə çatdığı aydın olur. Uşaqlarla davranış, məktəbdə, cəmiyyətdə, xüsusilə ailədə onlara münasibət o qədər incə, həm də məsuliyyətli işdir ki, bu sahədə ehtiyatlı olmaq lazımdır.**

# DİN uşaqlara qarşı zorakılıq cinayətlərinə görə cinayət təqibi prosesini genişləndirdi...



## *Fatimə Hacıbəyli: "Uşaqlara qarşı zorakılıq onların özgüvənini sarsıdır, gələcək həyatında böyük problemlərə səbəb olur"*

Ailəyə dövlətin kiçik modeli kimi baxırıq, uşaqlar da ailənin özəyidir. Onların hüquqlarının təmini valideynlərlə yanaşı, dövlətin də qarşısında duran əsas məqsəddir. Yetkinlik yaşına çatmayan, xüsusən də yeddi yaşına qədər olan uşaqlar özlərinin hüquq və qanuni mənafelərini müdafiə etmək iqtidarında olmurlar. Bu səbəbdən onları qorumağın və vətəndaş kimi yetişdirməyin məsuliyyəti əsasən valideynlərin və məktəbin üzərinə düşür. Onların psixologiyasının bu yaşlarında zədələnməsinə imkan vermək olmaz. Çünki uşaqlar azyaşlıykən aldıqları sevgini, şəfqəti, gözəl tərbiyəni, eləcə də zorakılığı və aqressiyanı böyüyəndə daha kəskin formada cəmiyyətə qaytarırlar. Sonda qazanan da, itirən də cəmiyyət olur. Uşaqlara qarşı hər hansı zorakılıq bütün ömürləri boyu onların psixologiyasında mənfi izlər buraxır və aldıqları aqressiyanı böyüyəndə cəmiyyətə qaytarırlar, eynilə bumeranq kimi: hansı tərəfdən atsan, o tərəfdən də özünə qayıdacaq.

Azərbaycanda sağlam ailə, tərbiyəli uşaq böyütmə kimi möhkəm ənənələr mövcuddur. Bu, millətimizin ən üstün tərəfidir. Necə deyərlər, valideynlər uşaqlarının üstündə yarpaq kimi əsirlər. Lakin təəssüflə deyə bilərik ki, son illər belə gözəl ənənələrimiz sanki laxlayır, bəzi uşaqlar cəmiyyətdən öncə ailədə müxtəlif zorakılıqlara məruz qalır, hətta öldürülürlər də.

Açıqlanan statistik rəqəmlərə əsasən, bu ilin 9 ayı ərzində Azərbaycanda uşaqlara qarşı zorakılıqlar nəticəsində 159 cinayət törədilib. Bu rəqəmi Daxili İşlər nazirinin müavini Oruc Zalov "Uşaqlara qarşı zorakılığın qarşısının alınması və ləğv edilməsi" mövzusunda keçirilən konfransdakı çıxışında deyib. Nazir müavini 266 şəxsin də uşaqlara qarşı cinayət törətdiyinə görə məsuliyyətə cəlb olunduğunu diqqətə çatdırıb. Oruc Zalov bundan əlavə, görülən işlər sayəsində uşaqlara qarşı törədilən cinayətlərin 24, cinsi azadlıqların əlindən alınmasının 38 fakt azaldığını da qeyd edib.

Uşaqlara qarşı 159 zorakılıq cinayəti Azərbaycan üçün böyük rəqəmdirmi? Bu sahədə vəziyyətin yaxşılığa dəyişməsi istiqamətində nə kimi işlərin görülməsi barədə fikirlərini öyrənmək üçün "Vəfa" Sosial-İctimai Birliyinin rəhbəri Fatimə Hacıbəyliyə müraciət etdik. O bizimlə söhbətində qeyd etdi ki, ailələrdə uşaqlara qarşı fiziki zorakılıqla tez-tez rastlaşırıq: "Qəzetlərdə və saytlarda, "Facebook"da bu haqda çox yazırlar. Qohum-qonşu, tanışlar, dostlar arasında uşaqlara qarşı zorakılıq faktlarını eşidib, bilib, danışanlar var. Uşaqlara qarşı həm psixoloji, həm də fiziki zorakılıq halları olur".

Həmsöhbətimizin sözlərinə görə, uşaqlara qarşı zorakılıq onların özgüvənini sarsıdır, gələcək həyatında böyük problemlərə səbəb olur. Amma əsəbi olan, zorakılığa əli yatan, artıq bunu vərdiş halına çevirən valideyn üçün nə qədər maarifləndirmə aparılsa da, görüləcək ki, on kəlmədən özünə xeyri olan birini götürüb, uşaqla bağlı doqquz kəlmənin heç birini yadında saxlamayıb.

*"Yetkinlik yaşına çatmayan uşağın özünü müdafiə etmək qabiliyyəti formalaşmadığı üçün, ona qarşı..."*

Birlik sədri onu da vurğuladı ki, tez-tez kənar insanların da uşaqlara qarşı zorakılıq etdiyini eşidirik: "Uşaqlara qarşı bir sıra yerlərdə xoşagəlməz hərəkətlər qeydə alınır. İnanın mənə, onların qapılarını döyüb, o ailəyə gedib "salam-əleykum" desək görəcəyik ki, həmin ailədə mütləq şiddət var. Şiddət görən uşaq təbii ki, məktəbdə, küçədə özünü qoruya bilməyəcək və zorakılıq halları ilə üzləşəcək. Şiddət onun üçün adi hala çevrilib, şəxsiyyəti formalaşmayıb. Şiddət nə qədər ona xoş olmasa da, o qədər sıradan bir hərəkətə çevrilib, ailə üzvlərindən elə şiddət görüb ki, kənar insanlardan gördüyü şiddət onun üçün nədir ki? Adi bir şey. Valideynlər övladlarının başqaları tərəfindən alçaldılmasını, zorakılığa məruz qalmasını, olmayan özgüvənlərinin daha da qırılmasını istəmirlərsə, birinci övladlarına özləri hörmət etsinlər. Bir valideyn övladına hörmət etmirsə, məktəbin ayaqyolundakı da ona hörmət etməyəcək. Çünki uşaq özünə hörmət etməyi öyrənməyib. Valideyn ona şiddətdən başqa nə öyrədib ki? İlk növbədə uşağa özünə hörmət etməyi aşılamaq lazımdır. Necə ailədə buna riayət olunur?".

Həmsöhbətimizin sözlərinə görə, uşaqlar kənar şəxslər tərəfindən zorakılığa məruz qalanda evdə gəlib valideyninə deməyə qorxurlar: "Çünki valideynin ona lazım olan dəstəyi verməyəcəyini düşünürlər. Valideyn ya onun üstünə qışqıracaq, ya vuracaq. Bundan o tərəfə bir şey etməyəcək. Bu qorxuları yaşadığı üçün uşaqlar zorakılıqla üzləşdikdə valideynlərə danışmırlar. Valideynin sosial, maddi, şəxsi problemi ola bilər, amma bu problemlərinə uşağı qatmamalı, hirsini onun üzərində "partlatmamalıdır".

Ekspert qeyd etdi ki, uşaqlara qarşı zorakılıq yalnız ailədə deyil, cəmiyyətdə də baş verir. Uşaqların cinsi zorakılığa məruz qalması ilə bağlı Avropa Şurasının Konvensiyası var. Orada uşaq zorakılığına qarşı tədbirlər görülməsi əks olunub. Yetkinlik yaşına çatmayan uşağın özünü müdafiə etmək qabiliyyəti formalaşmadığı üçün, ona qarşı cinsi zorakılıq törədən şəxslər ciddi cəzalandırılmalıdırlar.

**Günel CƏLİLOVA**

---

**Azərbaycanda POS-terminalların quraşdırılmaması və ya quraşdırıldığı halda tətbiq etməkdən imtina edilməsi hallarına görə 2020-ci il yanvarın 1-dən maliyyə sanksiyalarının tətbiq olunacağı nəzərdə tutulub.**

# POS-terminal quraşdırmayan obyekt sahibləri cərimələnəcək...



## *Pərviz Heydərov: "POS-terminalların sayının artırılması üçün ticarət obyektləri..."*

Bu barədə Vergi Məcəlləsinə dəyişikliklərlə bağlı brifinqdə Vergilər Nazirliyinin Vergi Siyasəti Baş İdarəsinin rəisi Samirə Musayeva məlumat verib.

O qeyd edib ki, bu hala təqvim ili ərzində ilk dəfə yol verildikdə 1000 manat, ikinci dəfə yol verildikdə 3000 manat, üçüncü dəfə yol verildikdə 6000 manat maliyyə sanksiyası tətbiq ediləcək: "Bu, nəzarət-kassa aparatının tətbiq edilməməsinə bərabər tutulan maliyyə sanksiyalarıdır. Vergilər Nazirliyi ticarət obyektləri və xidmətlərində POS-terminal quraşdırmaqdan imtina edən və müştərilərə təqdim etməyənləri cərimələyəcək".

Azərbaycanda POS-terminalların quraşdırılmamasına görə obyekt sahibinə sanksiya tətbiq olunması və ya 6000 manat dəyərində cərimə olunması ekspertlər tərəfindən müsbət qiymətləndirilir.

İqtisadçı-ekspert Pərviz Heydərov "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, Vergilər Nazirliyinin POS-terminal quraşdırmayan obyektlərlə bağlı qərarının əhəmiyyəti böyükdür: "Nəzərə almaq lazımdır ki, əhalinin əlində plastik kartların artım tempi ilə iaşə obyektlərindəki POS-terminalların sayı uyğun gəlmirdi. Ticarət obyektlərində POS-terminalların sayı artmaq əvəzinə, əksinə, azaldı. Bu qeyri-normal haldır. POS-terminal vasitəsilə ödənişlərin ölkədə genişləndirilməsi bir çox mənada əhəmiyyətlidir. POS-terminalların sayının azalması iqtisadiyyat üçün ciddi siqnaldır. Onların sayının artması üçün aidiyyəti qurumlar müvafiq işlər görüb. Hətta Prezident İlham Əliyev də POS-terminalların sayının artması məsələsinə toxunub. POS-terminalların sayının artmasında da ticarət obyektləri maraqlı olmalıdırlar. Bunun üçün iaşə obyektləri stimullaşdırılmalıdır. Ticarət obyektinin özü POS-terminalın olmasında maraqlı deyilsə, o, qeyd olunan aparatın quraşdırılmasından yayınacaq. İlk növbədə iaşə obyekti sahibləri stimullaşdırılmalıdır ki, onlar POS-terminal quraşdırmaqda maraqlı olsunlar. POS-terminalların sayının artırılması üçün ticarət obyektləri ya stimullaşdırılmalı, ya da buna qarşı çıxanlara dair inzibati metod gücləndirilməlidir. Bu istiqamətdə Vergilər Nazirliyinin gördüyü iş təqdirəlayiqdir".

*"Ticarət obyektinin özü POS-terminalın olmasında maraqlı deyilsə, o, qeyd olunan aparatın quraşdırılmasından yayınacaq"*

**Günel CƏLİLOVA**

# Bakıda akademikin evinin altında rəzalət - yüzdən çox müraciəti bloklayan kimlərdir...

**Bakıda bəzi binaların zirzəmilərində gecə klublarının, barların mövcud olması heç kəs üçün gizlin deyil. Bir çox hallarda bar və gecə klublarında səsləndirilən musiqinin, eləcə də müştərilərin səsindən bina sakinlərinin gecə yuxusuna əməlli-başlı haram qatılır.**



***Binəqədi Rayon İcra Hakimiyyəti:** ”Şikayətçilər tərəfindən bizim quruma rəsmi şəkildə müraciət olunarsa, mütləq şəkildə, vətəndaşların müraciətinə qanuna müvafiq olaraq rəsmi cavab verilə bilər”*

AMEA Fizika İnstitutunun əməkdaşı, Avropa Təbiət Elmləri Akademiyasının akademiki, Rusiyada nəşr olunan "Beynəlxalq Alternativ Energetika və Ekologiya" jurnalının redaksiya kollegiyasının üzvü, fizika-riyaziyyat elmləri doktoru, professor Qüdrət İsaqov öz "Facebook" hesabında yaşadığı binanın zirzəmisində fəaliyyət göstərən gecə klubunun fəaliyyətinin dayandırılması ilə bağlı Prezident İlham Əliyevə, Birinci vitse-prezident Mehriban Əliyevaya, Məhkəmə Hüquq Şurasının sədri Fikrət Məmmədova, Ali Məhkəmənin sədri Ramiz Rzayevə, Bakı Apelyasiya Məhkəməsinin sədri İman Nağıyevə, Daxili İşlər naziri Vilayət Eyvazova, Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizova, Binəqədi Rayon İcra Hakimiyyətinin başçısı Elxan Allahverdiyevə müraciət edib.

Gecə barının sakinlərə yaşatdığı problemlərlə bağlı ölçü götürülməsi üçün əlaqədar qurumlara 113 müraciət etdiyini qeyd edən Q.İsaqov bunları yazıb: "Sizdən xahiş edirəm, gecə barını bağlamaqla hər gün binamızın zirzəmisində gecə saat 2, 3, 4, 5-ə qədər davam edən səs-küyün qarşısını alasınız!

Mən ailəmlə birlikdə Binəqədi rayonu, Naxçıvani küçəsi, 39A saylı binanın birinci mərtəbəsində yerləşən 3-cü mənzildə yaşayıram! Nəzərinizə çatdırıram ki, binamızın zirzəmisini özəlləşdirən şəxs zirzəmimizin 17 dəmir-beton panelində dağıntılar yoluyla qapı-pəncərələr açıb. Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi binamızın zirzəmisində törədilən dağıntılar nəticəsində hər an binamızın uça biləcəyi, sakinlərin həyatı üçün qorxulu nəticələr törədəcəyi haqda müxtəlif vaxtlarda 3 akt tərtib edib". Q.İsaqov, həmçinin, bildirir ki, Binəqədi Rayon Məhkəməsi sözügedən binanın zirzəmisini dağıdan şəxsin maliyyə vəsaiti hesabına zirzəmimizin ilkin layihəsinə qaytarılması haqqında qətnamə qəbul edib. "Bunlarla yanaşı, binamızın zirzəmisində sutka boyunca fəaliyyət göstərən gecə barı da açılıb ki, bu da mənim və ailəmin, digər insanların istirahət etməsinə, yatmasına imkan vermir! Hər gün binamızın zirzəmisində gecə saat 2, 3, 4, 5-ə qədər səs-küydən yata bilmirik! Hər gecə 3-4 dəfə polis çağırırıq. Nəzərinizə çatdırıram ki, mən bu haqda DİN-in 102 "qaynar xətt"inə 100 dəfədən çox zəng etmişəm.

Sizdən xahiş edirəm, asayişin, əminamanlığın qorunması naminə gecə barını bağlatdırasınız! Sizdən xahiş edirəm, gecə barının küçə tərəfindən zirzəminin divarını dağıtmaqla, qanunsuz açılmış qapının üstündə tikilmiş və mənim pəncərəmin bərabərinə qədər yüksəldilmiş çardağı sökdürəsiniz!

Sizdən xahiş edirəm, binamızın 100 kvadratmetrdən çox işğal edilmiş həyətini azad etdirəsiniz!

Mənzilimizdən qaçmağa yer axtarırıq. Xahiş edirəm, bizə mənzil verəsiniz!" - deyə Q.İsaqov yazıb.

Məsələ ilə bağlı Binəqədi Rayon İcra Hakimiyyətinin mövqeyini öyrənmək üçün bu quruma müraciət etdik. Binəqədi Rayon İcra Hakimiyyətindən "Bakı-Xəbər"ə verilən məlumata görə, Q.İsaqov və sözügedən binanın sakinləri gecə barı ilə bağlı bu quruma heç bir müraciət etməyiblər: "Bu məsələ ilə bağlı sakinlər tərəfindən Rayon İcra Hakimiyyətinə hər hansı bir rəsmi məktub, müraciət daxil olmadığından, İcra Hakimiyyətindən onlara cavab verilməyib. Şikayətçilər tərəfindən bizim quruma rəsmi şəkildə müraciət olunarsa, mütləq şəkildə, vətəndaşların müraciətinə qanuna müvafiq olaraq rəsmi cavab verilə bilər. Yəni İcra Hakimiyyətinə bu barədə heç bir rəsmi məlumat daxil olmayıb. Eyni zamanda, həmin binanın zirzəmisində gecə klubunun, barın yaradılması, fəaliyyəti ilə bağlı hər hansı bir narahatlıq varsa, bunu yaradan özəl sahibkardır. O zaman bina sakinləri ya fərdi, ya da kollektiv şəkildə hüquq-mühafizə orqanlarına müraciət etməlidirlər. Sakinlər, eyni zamanda, İcra Hakimiyyətinə müraciət edib bildirsələr ki, belə bir hal var və biz bundan narahatıq, İcra Hakimiyyəti də bu müraciəti aidiyyəti üzrə hüquq-mühafizə orqanlarına yönəldə bilər. Bu gecə barı hansısa sahibkarın özəl mülküdür və ondan istifadə etmək üçün onun hüququ var. Əgər onun fəaliyyəti sakinləri narahat edirsə, qeyd edildiyi kimi, ya hüquq-mühafizə orqanlarına, ya da İcra Hakimiyyətinə müraciət edilməlidir".

***İradə SARIYEVA***

# Yarıçılpaq qızların erotik fotoları altında məşhur kəlağayının reklamı - necədi...

**Azərbaycan qadınının həya, abır-ismət rəmzi olan kəlağayı milli baş örtüyü kimi böyük bir statusa sahibdir. Milli-mənəvi dəyərlər sistemində xüsusi yeri olan kəlağayıdan elə istifadə edilməlidir ki, ona hər hansı bir hörmətsizlik gəlməsin. Son zamanlar ölkə qadınları nəinki milli bayramlarda, eləcə də gündəlik həyatda kəlağayı bağlayırlar.**



***Ənvər Çingizoğlu:** ”Kəlağayını erotik reklam rolikində istifadə edənlər, onu üzərinə sərənlər, çiyinlərinə atanlar, özlərini kəlağayı altında gizlədənlər böyük mənəvi cinayətə imza atıblar”*

Öz gözəlliyi, milli koloriti ilə seçilən kəlağayılar Azərbaycan qadınının gözəlliyini tamamlayır.

Bununla yanaşı, təəssüf ki, kəlağayıya hörmət gətirməyən qadınlar da var. Bu günlərdə sosial şəbəkələrdə kəlağayı ilə bağlı yayılan bir foto hər kəsin diqqətini cəlb etdi və geniş müzakirəyə səbəb oldu. İki qız çəkdirdikləri erotik fotoda Azərbaycan kəlağayısını da öz aləmlərində reklam ediblər. Milli baş örtüyümüz kəlağayı erotik reklamda istifadə edilib. Heç şübhəsiz ki, kəlağayıdan erotik fotoların çəkilməsində bir aksesuar kimi istifadə edilməsi yolverilməzdir və bu, tarixi keçmişimizə vurulan zərbədir. Erotik reklam çəkənlərin burada kəlağayıdan istifadə etməsi qıcıq doğurur.

Bir çox sosial şəbəkə istifadəçisi bunu keçmişimizə sayğısızlıq kimi dəyərləndirib. O fotolarda əks olunan qızların kimliyi hələ məlum deyil, onların model, yaxud erotik aktrisa, ya da sadə vətəndaşlar olduğunu kimsə bilmir.

Tanınmış etnoqraf-alim, tədqiqatçı Ənvər Çingizoğlu bizimlə söhbətində bildirdi ki, ana-nənələrimizin göz bəbəyi kimi qoruyub bu günümüzə ötürdüyü, Azərbaycan qadınının həya simvolu olan kəlağayıya bu cür münasibət böyük mənəvi cinayətdir. "Sözün açığı, erototik reklamda kəlağayının hallandırılması məni çox narahat etdi. Kəlağayı Azərbaycan xalqının mənəvi dəyəridir. Mənəvi dəyərlərimizi bu şəkildə tapdamaq olmaz. Kəlağayını erotik reklam rolikində istifadə edənlər, onu üzərinə sərənlər, çiyinlərinə atanlar, özlərini kəlağayı altında gizlədənlər böyük mənəvi cinayətə imza atıblar. Azərbaycan qadınına yaraşmayan hərəkətə yol verən bu insanların kəlağayıdan erotik videoda bir milli element kimi istifadə etməsi heç cür yaxşı qarşılana bilməz. Ümumiyyətlə, bəzi reklam şirkətləri milli dəyərlərə, milli elementlərə çox zaman bu cür hörmətsiz yanaşırlar. Kəlağayının erotik reklam vasitəsilə təbliğ edilməsi bizə başucalığı gətirmir, bu, milli-mənəvi dəyərlərimizə vurulan zərbədir. Bəzən adama elə gəlir ki, bəlkə də heç bu fotolar Azərbaycanda çəkilməyib, bu da növbəti bir erməni təxribatıdır.

*”...bu, milli-mənəvi dəyərlərimizə vurulan zərbədir”*

Azərbaycan kəlağayısı UNESCO-ya salınıb. Bu çox müsbət bir haldır. Kəlağayını milli Azərbaycan baş örtüyü kimi dünyada tanıyırlar.

Sosial şəbəkələrdə yayılan erotik reklamla kəlağayını mənfi istiqamətdə təbliğ edirlər"-deyə bildirən Ə.Çingizoğlunun sözlərinə görə, Azərbaycan kəlağayısına qarşı hər cür təxribatın qarşısı alınmalıdır. "Bir adamın nəyisə itəndə, nəyisə oğurlananda onunla bağlı cinayət işi başlanır. Bəs milli-mənəvi dəyərlərimizi təhqir edənlərə, aşağılayanlara qarşı nə üçün hüquq müstəvisində addımlar atılmır? Əslində, belələrinə qarşı tədbirlər görülməlidir" - deyə Ə.Çingizoğlu bildirdi.

***İradə SARIYEVA***

№ 215 (4113) ■ Qiymәti: 40 qәpik

# BAKI XӘBӘR

4 DEKABR 2019-cu il

www.baki-xeber.com

# Marsda "suvuran" qüllәlәr...

**Beynәlxalq tәdqiqatçılar qrupu marsoxodların vә orbital kosmik aparatların mәlumatlarını tәhlil edәrәk Marsda günәş şüalarının tәsiri altında isinәn vә Qırmızı planetin sәthindәn su buxarını çıxararaq qaldıran toz qüllәlәri aşkar edib.**



"ABŞ"ın Aeronavtika vә Kosmik Tәdqiqatlar Milli Agentliyinin (NASA) saytına istinadla xәbәr verilir ki, tәdqiqatın nәticәlәri "Journal of Geophysical Research" nәşrindә dәrc olunub. Mühüm kәşf "Opportunity" marsoxodu vә "Mars Reconnaissance Orbiter" orbital aparatının çoxsaylı mәlumatları sayәsindә edilib. Mәlum olduğu kimi, 2018-ci ildә "Opportunity" marsoxodu qlobal toz fırtınasına mәruz qalıb. Lakin bu әsnada missiya çox qiymәtli mәlumatlar әldә edә bilib. Alimlәr toz qüllәlәri adlanan toz buludlarını üzә çıxarıblar. Onların Marsın sәthindәn çox hündürә qalxdıqları vә tәrkibindә su buxarı olduğu mәlum olub. Belә ki, su buxarı süratlә kosmosa atılır vә günәş radiasiyası onu molekullara parçalayır. Bu kәşf milyardlarla il bundan әvvәl Marsda suyun necә yoxa çıxdığını izah etmәyә imkan verә bilәr. Tәdqiqatçıların sözlәrinә görә, toz qüllәlәri massiv vә köpüklәnәn buludlardır vә Marsın nazik atmosferindә olan adi tozdan fәrqlәnir. Ehtimal olunur ki, onlar qlobal fırtınalar vaxtı meydana gәlirlәr. Marsın sәthindәki bu qüllәlәr süratlә göyә qalxan toz kimi görünürlәr. Qüllә 80 kilometr yüksәkliyә çatdıqda, onun eni dә son hәddә qәdәr genişlәnir. Toz qüllәsinin dağılması zamanı isә 56 kilometr yüksәklikdә ABŞ-ın kontinental hissәsi boyda tәbәqә yaranır. Alimlәr hesab edirlәr ki, toz qüllәlәri bütün Mars ili boyu meydana gәlir. Lakin fırtına zamanı bu sikl dәyişir. "Opportunity" marsoxodunun mәlumatları göstәrib ki, qlobal fırtına baş verdikdә toz qüllәlәri bir neçә hәftә әrzindә daimi olaraq tәzәlәnir. Bu qüllәlәrin aktivliyi dә alimlәri tәәccüblәndirib. "Kosmik liftlәrin" hәrәkәt süräti çox yüksәkdir. İsinәn toz qazları vә su buxarını daşıyan axınlar meydana gәtirir.




## "BakuTel" sәrgisindә "Nar" stendinә gәl, müasir smartfon qazan!

**Ölkәnin әn gәnc mobil operatoru "Nar" "BakuTel-2019" - 25-ci Beynәlxalq Telekommunikasiya vә İnformasiya Texnologiyaları Sәrgisindә iştirak edir. Hәr zaman müştәriyönümlü addımları vә yeniliklәri ilә seçilәn "Nar" yubiley sәrgisindә interaktiv stendi ilә ziyarәtçilәri qarşılayır.**

"Nar" abunәçilәri hesabı daha asan idarә etmәyә imkan verәn "Nar+" tәtbiqini yüklәmәklә müsabiqәdә iştirak haqqı qazanırlar. Bütün sәrgi boyu keçirilәcәk müsabiqәnin qaliblәri hәr günün sonunda elan edilәcәk vә müasir smartfonla tәltif olunacaqlar. Stendin diqqәtçәkәn xüsusiyyәtlәrindәn biri dә "Nar"ın yüksәk keyfiyyәtli şәbәkәsini özündә tәcәssüm etdirәn maraqlı aktivliklәrin tәqdim olunmasıdır. Belә ki, hәr bir sәrgi iştirakçısı xüsusi ayrılmış qapalı zonada virtual reallıq oyunlarını sınaqdan keçirmәk şansına malikdir. Bundan başqa, ziyarәtçilәr hәm dә 4G şәbәkәsinin süratini yerindәcә test edә bilәrlәr.

Mobil operator hәr kәsi 3-6 dekabr tarixlәrindә Bakı Ekspo Mәrkәzindә keçirilәcәk 25-ci "BakuTel-2019" sәrgisindәki "Nar" stendinә dәvәt edir.

"Azerfon" şirkәti ("Nar" ticarәt nişanı) 21 mart 2007-ci ildә fәaliyyәtә başlayaraq qısa bir müddәtdә Azәrbaycanda telekommunikasiya vә mobil rabitә sahәsinin aparıcı şirkәtlәrindәn birinә çevrilib. "Nar" ticarәt nişanı Azәrbaycanın zәngin mәdәni vә tarixi irsinin çağdaş hәyatla bağlılığının rәmzi olaraq seçilib. "Nar" ölkәdә ilk dәfә olaraq 3G texnologiyasını tәqdim edib vә geniş 4G şәbәkәsini abunәçilәrinin istifadәsinә verib. Nar" şәbәkәsi hazırda ölkә әrazisinin 93%-ni (işğal olunmuş әrazilәr istisna olmaqla) әhatә edir vә 8600-dәn artıq baza stansiyası ilә 2,3 milyondan çox abunәçiyә yüksәk keyfiyyәtli xidmәt göstәrir.

## Elan

Mәmmәdov Rüstәm Dastan oğluna mәxsus, Şabunçu rayonu, Lәhiş bağları, 4355 a ünvanına aid çıxarış itdiyi üçün etibarsız sayılsın.

Әliyev Seymur Novruz oğluna mәxsus torpaq sahәsinin mülkiyyәtinә dair dövlәt aktı (JN-0455 kod 91004018) itdiyi üçün etibarsız sayılır.

Mәcidov Yarәli Manaf oğlunun adına, Bakı şәhәri, Sabunçu rayonu, 1-ci Kolxoz döngәsi, ev 17 ünvanına verilmiş qeydiyyat vәsiqәsi itdiyi üçün etibarsız sayılır.

Tahirov Orxan Azәr oğluna Bakı Dövlәt Universiteti tәrәfindәn verilmiş tәlәbә bileti itdiyi üçün etibarsız sayılır.

Әhmәdov Sәfәrәli Hәsәn oğlunun adına, Bakı şәhәri, Binәqәdi rayonu, 6-cı mikrorayon, 1410-cu keçid, 3215-ci mәhәllә, ev 2 a, mәnzil 31 ünvanına verilmiş çıxarış (seriya RX 0632082) itdiyi üçün etibarsız sayılır.

Babayev Fәrid Tofiq oğlunun adına, Badamdar qәsәbәsindә yerlәşәn torpaq sahәsinin mülkiyyәtә verilmәsinә dair şәhadәtnamә (JN-13846 D kod 00400016) itdiyi üçün etibarsız sayılır.

Hәsәnov Әbdül Hüseyn Әbdül-Bağı oğlunun adına, Bakı şәhәri, Sabunçu rayonu, İ.Hәsәnov küçәsi, ev 44 ünvanına verilmiş çıxarış itdiyi üçün etibarsız sayılır.





**Qoç** - Qeyri-adi gündür. Başqalarının gözünә kül üfürmәyi bacaranlar çox irәli gedәcәklәr. Әksәriyyәt hamının şıltaq olduğu qәnaәtinә gәlәcәk. Әn xırda sәrtlik insanların qәlbini incidir.



**Buğa** - Әlçatmaz bir arzuya doğru inamla qaçırsınız. Hәtta bilirsiniz ki, nә qәdәr barmaqlarınız üstә dayanmağa çalışsanız da, indi istәdiyinizә toxunmaq belә mümkün deyil. Amma bu, sizin inadınızı qırmır.



**Әkizlәr** - Sakit gündür. Heç bir improvizә etmәdәn әvvәlcәdәn hazırladıqları plan üzrә hәrәkәt edәnlәr üçün çox mәhsuldar olacaq. İntuisiya sәhvә aparır, yelbeyinlik vә xudpәsәndlik düzәldilmәsi çәtin şәraitlәr yaradır.



**Xәrçәng** - Sizin soyuqqanlı ağlınız emosiyalarınızın üzә çıxmasına әngәl olacaq. Әlbәttә, başqa vaxt bu, әla olardı. Amma indi heç yerinә düşmür, çünki xeyli әylәncә vә xoş tәәssüratdan qala bilәrsiniz.



**Şir** - Bu gün çoxlu danışıqlar vә müzakirәlәrlә yadda qalacaq. Әksәriyyәt çәtin sualların cavabını axtarmağa çalışır. Hәtta, әn düzgün insanlar bu gün azca da olsa, hiylәgәrlik işlәtmәyә çalışacaqlar.



**Qız** - Başınız özünüzә elә qarışıb ki, başqalarının problemlәrini görmürsünüz. Dilinizi dinc saxlamağa çalışın, sәrt zarafatlarınız kimisә әylәndirә bilәr, amma onları eşidәnlәr arasında qәlbi qırılanların sayı daha çox olacaq.



**Tәrәzi** - Babat gündür, dözmәk olar. Hәrdәn narahatlıq keçirәcәksiniz, amma bunların heç biri ciddi sәbәbdәn qaynaqlanmır. Planlaşdırdıqlarınızın öhdәsindәn asanlıqla gәlәcәksiniz.



**Әqrәb** - Çox şey istәyirsiniz. Amma nәyә daha çox can atsanız, onu da әldә edәcәksiniz. Gözlәnilmәdәn müttәfiqlәriniz peyda olacaq, başqalarının tәcrübәlәrinә güvәnin, yalnız öyrәnmәk xatirinә sәhv etmәk lazım deyil.



**Oxatan** - Bu günә çox ümid olmayın. O, xoş keçsә dә, hәyatınızda nәyisә köklü surәtdә dәyişmәyә qadir deyil. Boş xәyallar qurmayın. Sәyahәtә çıxmaq, imicinizdә, interyerinizdә nәyisә dәyişmәk dә kefinizi açmayacaq.



**Oğlaq** - Uğura arxayın olmayın, bu gün hәr şeyi öz zәhmәtiniz vә inadınız bahasına әldә edәcәksiniz. Rәhbәrliklә, rәsmilәrlә münaqişәniz ola bilәr. Siz çox sәrbәstsiz, hәrdәn dözülmәz dәrәcәdә.



**Dolça** - Düşünmәyin ki, bütün dünya sizin әleyhinizә qalxıb. Tezliklә hәr şey düzәlәcәk. Maliyyә işlәrindә ehtiyatlı olun. Sizin üçün vacib olan layihәlәrin taleyini tanımadığınız insanlara hәvalә etmәyin.



**Balıqlar** - Çox lәngsiniz. Әslindә, bu, elә dә pis deyil, sadәcә, әtrafınızdakılar sizi daim tәlәsdirmәyә çalışacaqlar. Hәr şeyi zarafata çevirsәniz dә, sәbrinizin tükәnmәsi ehtimalı var.

*Qoroskop Rusiya vә Qәrb astroloqlarının proqnozları әsasında hazırlanıb*

## Rusiyada döyüşçü robot qrupları yaradılacaq

**2025-ci ilә qәdәr Rusiyada döyüş tapşırıqlarını yerinә yetirmәk qabiliyyәtinә malik çoxfunksiyalı robotlardan ibarәt qruplaşmalar yaradıla bilәr.**



"Deyerler.org" bildirir ki, bu barәdә ölkәnin müdafiә-sәnaye kompleksindәki mәnbәyә istinadәn RİA "Novosti" Agentliyi bildirib. Qeyd edilir ki, qruplaşmaların formalaşdırılması mәsәlәsi 2020-ci ildәn nәzәrdә tutulub. "Biz 2025-ci ilә qәdәr fundamental vә eksperimental dizayn planda bu mәsәlәni yekunlaşdırmalıyıq", - deyә mәnbә bildirib. Mәlumata görә, qruplaşmaların sonra silahlı qüvvәlәr sisteminә keçidi planlaşdırılır.

***Hazırladı: Ramil QULİYEV***

Baş redaktor: *Aydın Quliyev*

Baş redaktorun müavini: *Tahir Tağıyev*

Redaksiyanın ünvanı: *Bakı şәhәri, Mәtbuat pr. 529-cu mәhәllә, 6-cı mәrtәbә*

Tel-faks: *510-87-40; 510-87-38; 510-87-39*

*e-mail: azer22@mail.ru*

**Reyestr № 0106-P219-45846**

Qәzet hәftәdә 5 dәfә çıxır. (Bazar vә bazar ertәsindәn başqa). «BZ»-dә çap olunur.

*Sifariş: №2514* *Tiraj: 3050*

Qәzetdә «Olaylar» vә «Trend» informasiya agentliklәrinin materiallarından istifadә edilir.

Reklam mәtninә görә qәzet mәsuliyyәt daşımır.